Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

71-ci cild

24 may 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 169

*Milli Məclisin iclas salonu.*
*24 may 2024-cü il*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 93 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Bahar Muradova**, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Teymur Məmmədov,** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin köməkçisi.

**Taliyə İbrahimova,** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri.

**Sevinc Məmmədova,** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin böyük məsləhətçisi.

**Aysel Səmədova,** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin böyük məsləhətçisi.

**Anar Kərimov,** Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Əli Mövsümov,** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyəti sədrinin müavini.

**Elnur Abbasov,** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.
2. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2023-cü ildə fəaliyyəti haqqında məlumatı.
3. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında"

Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ceyhun Məmmədov, Azər Kərimli, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Şahin İsmayılov, Elnur Allahverdiyev, Fəzail Ağamalı, Razi Nurullayev, Anar İsgəndərov, Tural Gəncəliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**2. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2023-cü ildə fəaliyyəti haqqında məlumatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bahar Muradova, Hicran Hüseynova, Vüqar Bayramov, Fazil Mustafa, Zahid Oruc, Etibar Əliyev, Tahir Rzayev, Razi Nurullayev, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Kamilə Əliyeva, Vüqar İskəndərov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**3. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 79 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

**4. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 81 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 81 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar İskəndərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**7. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Qüdrət Həsənquliyev, Əli Məsimli, Fəzail Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 79 |
| Əleyhinə | 3 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*24 may 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. 10 nəfər çıxış edə bilər. Buyurun, kim istəyirsə, yazılsın. Sonuncu Tural Gəncəliyevin çıxışı olacaq. Fərid müəllim, xahiş edirəm, qalanları siyahıdan çıxarın. Birinci çıxış Ceyhun Məmmədovundur. Buyurun, Ceyhun müəllim.

**C.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Məlum olduğu kimi, bu gün Ermənistanda ictimai-siyasi gərginlik davam edir. Hər zaman olduğu kimi, bugünkü gərginliyin əsas körükçülərindən biri kilsədir, teatrın əsas oyunçusu isə Baqrat Qalstanyandır. O, ayın 26-da yenidən izdihamlı mitinq təşkil etməyi planlaşdırdığını bildirir. Təbii ki, bu prosesdə o, tək deyil, köhnə rejimin qalıqları da onun arxasında gizlənərək fəaliyyətlərini davam etdirirlər.

Məlum olduğu kimi, tarix boyu bölgəmizə sülhün gəlməsinə, azərbaycanlılarla ermənilərin dinc şəraitdə yaşamasına mane olan əsas qurumlardan biri kilsə olub və bu gün də kilsə o fəaliyyətini davam etdirir. Eyni zamanda, Birinci Qarabağ, İkinci Qarabağ savaşları dönəmində də erməni keşişlərinin əllərində silahlar olduğunu görmüşdük və onlar birbaşa əhalini müharibəyə təhrik edirdilər.

Lakin xristianlığa, Baqratın mənsub olduğu dinə gəldikdə isə biz görürük ki, ümumiyyətlə, xristianlıq müharibənin, bütün dinlər, insanlar arasında ədavətin əleyhinədir, heç vaxt insanları düşmənçiliyə və müharibəyə çağırmayıb. Beləliklə, Baqrat öz dininə də xəyanət edir. İsa peyğəmbər “İncil”də deyirdi ki, sənə pislik edənə sən pislik etmə, sağ yanağına vurana o biri yanağını çevir.

Bəs Baqrat erməni cəmiyyətinə nə təklif edir? Sülhün alternativi müharibədir. Ermənistan dövləti və cəmiyyəti

müharibəyə hazırdırmı? Erməni xalqı yenidən eyni faciələri yaşamaq istəyirmi? Düşünürəm ki, xeyr. Çünki onlar 2020–2023-cü il hadisələrindən artıq nəticə çıxarıblar. "Dəmir yumruğun" ağır zərbəsini hələ unutmayıblar, uzun illər də unutmayacaqlar. Erməni xalqı bu saxtakar, dəllal, yalançı keşişə və onun arxasında qorxaqcasına gizlənən köhnə rejimin qalıqlarına öz yerini mütləq göstərməlidir. Ermənistanın inkişafı, erməni xalqının rifahı Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasından asılıdır. Ağıllı ermənilər bunu yaxşı bilirlər. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azər Kərimli. Buyurun.

**A.Kərimli**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Fransa xarici işlər nazirinin, Valeri Boyerin və bir sıra digər senatorların Yeni Kaledoniyada məhz rəsmi Parisin ayrı-seçkilik və yeni müstəmləkəçilik siyasəti nəticəsində baş verənlərlə bağlı Azərbaycana ünvanladığı Fransanın daxili işlərinə qarışmaq kimi əsassız ittihamı arqumentsizlikdən və məntiqsizlikdən doğan çarəsizliyin son həddi hesab oluna bilər. Azərbaycanın Yeni Kaledoniya ilə bağlı mövqeyinə gəldikdə isə bu, ölkəmizin beynəlxalq hüququn müstəqil subyekti kimi üzərinə götürdüyü öhdəliklərdən və qlobal məsuliyyətindən, BMT Nizamnaməsi və digər beynəlxalq sənədlərdən, eləcə də ölkəmizin üzv olduğu Qoşulmama Hərəkatının fəaliyyətinin əsasını təşkil edən "Banduq prinsipləri"ndən irəli gələn bir yanaşmadır. Uzun illər boyu dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda silahlı separatizmi, işğalı dəstəkləyən, müharibə canilərini, terrorçuları himayə edən bir dövlətin BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına öz gücü və potensialı hesabına nail olan, regionda

və bütün dünyada sülhü, təhlükəsizliyi təşviq edən Azərbaycana münasibətdə sərgilədiyi davranışlar ikrah doğurmaqla yanaşı, Fransa hökumətinin öz əməllərini başqasının adına yazmaq kimi uğursuz cəhdinin göstəricisidir.

Fransanın təcavüzkar siyasətinin tarixi XVI əsrdən başlayaraq bu gün də davam etməkdədir. 1954–1958-ci illərdə Əlcəzairin milli azadlıq hərəkatında fransızlar tərəfindən 300 mindən artıq dinc sakinin qətlə yetirilməsi, XX əsrin sonlarında Fransa ordusunun və muzdlulardan ibarət dəstələrinin Ruandada törətdiyi qətliamlar da buna sübutdur.

Dünya okeanlarına səpələnmiş de-fakto müstəmləkələrinin ərazisi insan hüquq və azadlıqlarından, demokratiyadan, xalqların öz müqəddəratını təyin etmək hüququndan dəm vuran müasir Fransanın ümumi ərazisinin 20 faizdən çoxunu təşkil edir. Məsələnin maraqlı tərəfi həm də bundan ibarətdir ki, sözügedən ərazilər Avropa İttifaqına daxil deyildir. Fransa Avropa İttifaqının hüquq sisteminə zidd bütün oyunlarını məhz bu müstəmləkələr üzərindən həyata keçirir.

Fransanın muzdlulardan ibarət fransız xarici legionuna muzdlular xidmətə qəbul edilərkən Fransaya deyil, legiona sədaqət andı içirlər. Bu, onların Fransa vətəndaşı olmaması ilə izah edilsə də, əslində, əsas səbəb legiona and içənlərin ölkənin konstitusiyasının prinsiplərini qorumaq öhdəliklərinin olmamasıdır. Bu səbəbdən də Fransanın muzdlu legionundan ən ağır müharibə cinayətlərində istifadə olunur. Yarandığı gündən Fransa muzdlularının Əlcəzair, Mərakeş və digər ölkələrdə törətdiyi qanlı və amansız cinayətlər indiyədək unudulmayıb. Elə bu gün də Fransa özü üçün həssas olan regionlarda – Yuxarı Korsi-

kada, Fransa Qviyanasında və Mayottada muzdlulardan ibarət xüsusi hərbi birləşmələr saxlayır. Fransanın...

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Müstəqilliyimizin 106-cı ildönümündə Azərbaycan tarixi qarşısında bəlkə də ən ciddi problem hələ də yanlış olaraq suverenlik yolunun meydanlardan keçməsi kimi eyforiyanın davam etməsidir. Baxmayaraq ki, ən azı yaxın dövrdə yaşananlar göstərir ki, meydanlardan müstəqilliyə yol getmir, inqilablar yalnız ölkələr üzərində əl dəyişikliyinə gətirib çıxarır. Ona görə də biz ilk növbədə Xalq Cümhuriyyətinin Rəsulzadənin müstəqillik mücadiləsinin nəticəsi olması, yaxud meydan hərəkatının SSRİ-ni dağıtması kimi düşüncələrdən uzaq durmalıyıq.

Azərbaycanın müstəqillik əldə etməsi hansısa ictimai-siyasi qüvvələrin və ya şəxslərin müstəsna xidməti deyil. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına 2000-ci il 29 dekabr tarixli müraciətində də ifadə etdiyi kimi, “Müstəqilliyimiz tarixin obyektiv proseslərinin qanunauyğun nəticəsidir”. Yəni müstəqilliyin təməlində 1918-ci ildə çar Rusiyasının, 1991-ci ildə isə SSRİ-nin dağılması dayanır. Əksinə, nə Xalq Cümhuriyyəti, nə də Xalq Cəbhəsi suverenlik yolunda milli iradəni təmsil edə bilmədi və xalqın mənafeləri ziddinə tarixi cinayətlər törədildi. 1918-ci ildə İrəvan, 1991–1993-cü illərdə isə bütövlükdə Qarabağ və Şərqi Zəngəzur xəyanətin qurbanı oldu.

Ulu Öndərin tarixi bir ifadəsi var: “Müstəqilliyi yalnız milli məhdudiyyətdə görən cılız adamlar belə hesab edirlər ki, hər şey elə təkcə Azərbaycan miqyasında olmalıdır”. Həqiqətən də, Heydər Əliyevə qədər Azərbaycan tarixinin heç bir dövründə müstəqilliyə aydın baxışa malik olmayıb. Hətta cümhuriyyət dövründə və müstəqilliyin ilk

illərində olduğu kimi, hələ də suverenliyi Rusiya ilə mübarizə kontekstində görənlər var. Amma cənab İlham Əliyev göstərdi ki, böyük siyasətdə cılızlığa yer yoxdur. Sual çıxır: 2012-ci ildə rus hərbi bazasını, hazırda isə sülhməramlıları ölkədən çıxararkən 100 il öncəki, yaxud 1990-cı illərin əvvəllərindəki davranışları niyə görmürük? Demək ki, problem Rusiya deyil. İrəvanı Ermənistana güzəştə gedən xəyanətkar təfəkkürlə, yaxud Xalq Cəbhəsi kimi cılız vizyonla yola çıxanda faciələr labüd olur.

Demək, sözün əsl mənasında, müstəqil davranmaq üçün ilk növbədə müstəqil dövlətçilik təfəkkürü ilə düşünmək lazımdır. Necə ki Heydər Əliyevin Sovet Azərbaycanı məhz bu təfəkkür sayəsində Xalq Cümhuriyyətindən də, 1991–1993-cü il Azərbaycanından da daha müstəqil davrana bilirdi. Amma təəssüflər olsun ki, Əliyevlərə qədər ölkədə nəinki bu təfəkkür hakim olmayıb, üstəlik, hətta başqalarında özümüzə ehtiram təlqin edə də bilməmişdik. Ona görə müasir Azərbaycan quruculuğunun kökündə həqiqətlər dayanmalıdır. Bu xalq üçün var olan, müstəqilliyin təməlində dayanan həqiqət isə Heydər Əliyevdir.

Əlbəttə, çox yanlış olaraq əks qütb formalaşdırmaq naminə Rəsulzadədən, Elçibəydən zorla olduğundan fərqli tarix uydurmağa çalışan psevdo tarixçilər hələ də müstəqillikdən konseptual formada danışa bilmir və bilməyəcək də. Amma bu günün müasir Azərbaycanı bütün bunların fövqündə dayanır və proseslər göstərir ki, bu coğrafiyada heç bir amil Əliyev kursu qədər müstəqilliyin qarantına çevrilə bilməz. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri. Uzun müddət Ermənistanın

işğalında qalan Qazaxın dörd kəndi bu gün Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin nəzarətinə götürülüb. Bu, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası deməkdir. Bu, eyni zamanda, o deməkdir ki, Azərbaycan postsovet məkanında münaqişələrə məruz qalan dövlətlər arasında ərazi bütövlüyünü və suverenliyini bərpa edən ilk ölkədir. Təbii ki, bu, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsidir.

Nəzərə alaq ki, uzun müddət, məhz birbaşa danışıqlaradək fərqli ölkələrin prosesə müdaxilələri var idi. Amma cənab Prezidentin, müzəffər Ali Baş Komandanımızın müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq Azərbaycan və Ermənistan arasındakı birbaşa danışıqlar, eyni zamanda, delimitasiya ilə bağlı formalaşdırılan işçi qrupu artıq ilkin nəticələrə gəlib və uzun müddət işğal altında olan kəndlərimiz geri qaytarılıb. Bu, həmçinin ondan xəbər verir ki, uzun müddət, hətta Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra həm ölkə daxilində, həm də xaricdə olan marjinal radikal qrupların "arqumentləri"nə baxmayaraq, Azərbaycan addımbaaddım regionda xüsusi bir nümunə göstərməklə ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Artıq praktik olaraq ərazi bütövlüyü və suverenliyi ilə bağlı həmin qrupların hər hansı bir "arqument"i yoxdur.

Bu gün Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Artıq Azərbaycanda cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə yeni bir səhifə açılıb. Bu gün artıq ilin sonuna qədər 25 min vətəndaşımızın Qarabağ və Şərqi Zəngəzura geri qayıtması təmin olunacaq. Yalnız 2023-cü ildə Azərbaycanın dövlət büdcəsindən 11,5 milyard manat vəsait Qarabağ və

Şərqi Zəngəzurun bərpasına, eləcə də milli təhlükəsizliyimizin güclənməsinə yönəldilib. Bu o deməkdir ki, dövlət büdcəsindən ayrılan hər 3 manatın 1 manatı Qarabağ və Şərqi Zəngəzurun bərpasına və hərbi gücümüzün daha da artırılmasına yönəldilir.

Bütün bunlarla yanaşı, yalnız son 4 sosial paketə dövlət büdcəsindən ayrılan əlavə vəsaitin həcmi 7 milyard manat olub. Yəni bu, o deməkdir ki, bir tərəfdən, Qarabağ və Şərqi Zəngəzur qurulur, digər tərəfdən, sosial təminat tədbirləri daha da genişlənir. Bu, həm müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ərazi bütövlüyümüz və suverenliyimiz ilə bağlı aparılan strategiya, həm də cənab Prezidentin, Ali Baş Komandanın rəhbərliyi ilə sosial təminat tədbirlərinin, iqtisadi islahatların daha da dərinləşməsi anlamına gəlir. O baxımdan bu gün artıq əldə edilən anlaşma yeni bir səhifədir. Əminəm ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan həm iqtisadi, həm də sosial sferada yeni-yeni uğurlar əldə edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Şahin İsmayılov. Buyurun.

**Ş.İsmayılov**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, əziz həmkarlar. Fransa tarixinin ən uğursuz prezidenti olan Makron yenidən ağır günlərini yaşayır. İsterik vəziyyətdə olan Makron Fransanın mayın 13-dən bəri iğtişaşların davam etdiyi Yeni Kaledoniyaya qarşı uğursuz siyasətinin bəhrəsini görür. Fransanın "Le Monde" qəzetinin də yazdığı kimi, Yeni Kaledoniyadakı iğtişaşlar 1980-ci illərdən bəri ən pisidir.

Sual oluna bilər ki, niyə Yeni Kaledoniya Fransa üçün bu qədər önəmlidir? Əvvəla, bu əraziyə nəzarət Fransaya Asiya–Sakit okean regionunda geosiyasi və hərbi təsirini saxlamağa imkan verir. İkincisi, Yeni Kaledoniya nikel

istehsalında dünyada aparıcı yerdədir. Üçüncüsü isə Afrikadakı uğursuzluqdan sonra Fransanın bu bölgəni itirməsi Beşinci Respublika üçün ciddi nəticələrə səbəb ola bilər.

Fransa sanki Afrikadakı və Yeni Kaledoniyadakı uğursuzluqlarını ört-basdır etmək üçün günahkar axtarışına çıxıb. Hələ bunlar azmış kimi, rəsmi Paris digər dövlətlərin, xüsusən də Azərbaycanın daxili işlərinə qarışmağa çalışır. Fransa erməni separatizmini dəstəkləməklə yanaşı, Yeni Kaledoniyada baş verən hadisələrdə Azərbaycanı günahlandırır. Mayın 16-da Fransanın daxili işlər naziri Jerar Darmanin "France 2" televiziyasına müsahibəsində Azərbaycanın Yeni Kaledoniyadakı vəziyyətə müdaxilə etdiyini, Yeni Kaledoniyada müstəqillik tərəfdarlarını müdafiə edən siyasi qüvvələri dəstəklədiyini bildirmişdir. "Bu, fantaziya deyil. Təəssüf ki, bəzi separatçılar Azərbaycanla razılığa gəliblər", – deyən Darmanin hansı müdaxilədən danışdığını açıqlamayıb.

Əslində, Yeni Kaledoniyadakı son iğtişaşların əsas səbəbinin yerli əhalinin Fransanın yeni müstəmləkəçilik siyasətinə dözmək istəməməsi olduğunu başa düşmək elə də çətin deyil. Digər tərəfdən, ölkəmiz heç vaxt müstəmləkəçiliyin əleyhdarı olduğunu gizlətməyib və bunu 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tam aradan qaldırılmasına doğru" konfransının iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupunun yaradılması da təsdiqləyir. Təşəbbüs qrupunun kanak xalqı ilə həmrəy olduğunu və Yeni Kaledoniyada son seçki islahatlarını pislədiyini nəzərə alsaq, Yeni Kaledoniyada müstəqillik tərəfdarlarının etiraz aksiyalarında Azərbaycan Bayrağını qaldırmasını ölkəmizə minnətdarlıq əlaməti kimi təbii qarşılamaq lazımdır.

İkincisi, hazırda Bakını guya Yeni Kaledoniyada

separatizmi dəstəkləməkdə ittiham edən Fransa Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə hüququnu təmin etmək üçün Azərbaycan qarşısında dəfələrcə əsassız tələblər irəli sürüb və bu günə kimi İrəvanı silahlandırmaqda davam edir. Bütün bunların fonunda bəs Fransa bizdən hansı reaksiyanı gözləyirdi?

Göründüyü kimi, Fransanın Afrikadakı yeni müstəmləkəçilik siyasətinin ciddi iflasa uğramasından sonra Paris beynəlxalq aləmdə kifayət qədər sarsılmış imicini hansısa yolla yaxşılaşdırmaq üçün bizim regionda öz maraqlarını təmin etməyə çalışır. Azərbaycan da öz növbəsində Fransanın siyasətindən fərqli olaraq balanslaşdırılmış siyasəti ilə Beşinci Respublikaya açıq şəkildə bildirir ki, o, nəinki Afrika ölkələrində yeni müstəmləkəçiliyin böyüməsini, hətta Parisin təxribat xarakterli addımlarını da səssizcə müşahidə etməyəcək.

Nəhayət, qeyd etmək lazımdır ki, Fransanın yeni müstəmləkəçilik siyasəti onun qoşunlarının Mali, Niger və Burkina–Fasodan çıxarılması ilə başlayan və Yeni Kaledoniyadakı hazırkı etiraz aksiyaları ilə bitən bir...

**Sədrlik edən.** Sağ olun. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar və media mənsubları. Lüksemburqun Deputatlar Palatasının sədri Klod Vislerin Ermənistan parlamentində səsləndirdiyi təxribatçı bəyanatla hər birimiz tanışıq. Milli Məclis bu bəyanata rəsmi münasibətini artıq tutarlı arqumentlərlə bildirib. Lüksemburqun parlament sədrinin söylədiyi fikirlər təxribatçı və qərəzli, bölücü mahiyyəti ilə yanaşı, həm də siyasi cəhətdən savadsız, geosiyasi vəziyyətin diktə etdiyi reallığa və Ermənistanla Azərbaycan arasında davam edən sülh gündəminin hazırkı durumuna ziddir. Klod Visler bu bəyanatı ilə mövcud

reallıqdan nə qədər uzaq və məlumatsız olduğunu büruzə verməklə, əslində, özü-özünü, yumşaq desək, biabır edib.

Əlbəttə, biz dünya siyasətində heç bir rolu olmayan Lüksemburq kimi bir dövlətin rəsmilərinin ölkəmizə qarşı qərəzinin haradan, daha doğrusu, hansı digər dövlətdən qaynaqlandığını yaxşı bilirik. Bu, Fransadır. Klod Visler kimilərinin həyəcanını başa düşürük. 2020-ci ilin 44 günlük müharibəsindən və ötən ilki antiterror əməliyyatındakı hərbi qələbələrimizdən sonra vislerəbənzər qərbli, avropalı, əsasən də, fransalı siyasət adamlarının Ermənistana gəlib özlərini gülünc vəziyyətə qoyduqlarının şahidi olmuşuq. Onlar, ümumiyyətlə, nəyə təsir edə bilərlər ki, Klod Visler də bu "uğur"u təkrarlaya bilsin? Heç bir şeyə nail olmayacaqlar.

Bununla belə, yaxşı olardı ki, Lüksemburqun parlament sədri belə məsuliyyətsiz çıxışlar etmədən öncə ona verilən konspektlərdəki məlumatları dəqiqləşdirsin. Məsələn, Azərbaycan tərəfindən həbs edilən canilərin kimliklərini. Ümumiyyətlə, onlar kimdir? Ətraflı və obyektiv informasiya almağa çalışsın, onların insanlığa və bəşəriyyətə qarşı cinayət əməlləri barədə məlumatı olsun. Vislerin bilməsi yaxşı olardı, o şəxslərin 30 il öncə qətlə yetirdikləri azərbaycanlı qadınların, uşaqların, yaşlı insanların qalıqlarını biz bu gün tapıb üzə çıxarırıq. On illərdir, gözüyaşlı qalmış ailələrinə təhvil veririk ki, dinimizə uyğun qaydada dəfn etsinlər. Görəsən, Klod Vislerin təmsil etdiyi ölkənin vətəndaşlarına qarşı belə amansızlıqlar etmiş canilərə münasibəti necə olar? Başqa bir dövlətin rəsmisi onlardan "azadlıq" tələb edəndə bu, Vislerin ürəyincə olarmı?

Belə çıxır ki, Ermənistan dövləti və rəsmiləri sözügedən canilərin mahiyyətinə bələddir deyə, onlarla

bağlı bir kəlmə belə danışmır. Ancaq uzaq və kiçik Lüksemburqun parlament sədri Qukasyanın, Saakyanın, Babayanın və başqalarının taleyindən narahatdır. Lüksemburq parlamentində təmsil olunan Visler və...

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, media təmsilçiləri. Nəhayət, bölgəmizdə sülhün bərqərar olması yolunda ilk addımlar atılır. Qazaxın 4 kəndi vətənə qovuşmuşdur. Növbədə digər 4 kəndimizin işğaldan azad edilməsi gözlənilir və bu kəndlərin də geri qaytarılmasına zərrə qədər şübhə ola bilməz. Bütün bu prosesin müəllifi möhtərəm cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

Bölgəyə sülh birmənalı şəkildə lazımdır və bu, bölgədə yaşayan bütün xalqların milli maraqlarına və dövlətçiliyinə tamamilə uyğundur, onunla üst-üstə düşür. Bölgəyə sülhün və təhlükəsizliyin gətirilməsi üçün, ilk növbədə, erməni işğalına son qoymaq lazım idi. Müzəffər Ali Baş Komandan qəhrəman silahlı qüvvələrimizlə 44 günlük müharibədə və ondan sonra keçən zaman kəsiyində, nəhayət, 2023-cü ilin sentyabrında separatçı xunta rejimini yerlə-yeksan etməklə bunun əsasını, təməlini qoydu. 44 günlük müharibədən dərhal sonra isə xüsusi 5 bəndli sülh proqramı ilə çıxış etdi. Buna qarşı çıxanlar da oldu. Ən müxtəlif səviyyələrdə maneçilik törətməyə çalışdılar. Bu gün öz dövlətçiliyi ilə, taleyüklü məsələləri ilə məşğul olmağı bacarmayan Fransa kimi ölkələrin də müqaviməti qırıldı. Ermənistandakı faşist cəmiyyətin müqaviməti qırılmaqdadır.

Bu gün orada yeniliklə cəhalət və faşist düşüncəli cəmiyyət arasında bir döyüş gedir. Əminik ki, nəticə etibarı ilə yenilik o cəhalətin və faşist düşüncəli insanların

üzərində qələbə çalacaq və regiona sülhün gətirilməsinə bütün maneələr aradan qalxacaqdır. Bütün bunların təşkilatçısı, memarı möhtərəm cənab Prezidentdir. O, bölgəyə sülh gətirməyi qəti şəkildə qarşıya qoyub və bu yolda da ciddi addımlar atılır. Mən əminəm ki, yaxın gələcəkdə cənab Prezident bölgəyə gətirdiyi bu sülhə görə, Nobel sülh mükafatına layiq olan, buna mənəvi haqqı çatan dövlət xadimlərindən biri kimi tarixə düşəcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bu çıxışımı əziz və hörmətli Mehriban xanıma həsr etmək istəyirəm. Baxışım budur ki, nə olur-olsun, kim nə düşünür, nə deyir-desin, amma yaxşılıqlar deyilməlidir və gərək heç kim ürəyindən keçənləri deməyə qorxmasın.

Mehriban xanımın mərhəməti, əliaçıqlığı, böyük ürəyi, sadə insanlara olan sevgisi haqqında danışanda bəziləri deyir ki, mənim imkanım, səlahiyyətim olsa idi, mərhəmətli olardım, bəlkə mən də paylaşardım. Bu mövqeyi qətiyyətlə yaxına buraxmıram. On minlərcə imkanlı, səlahiyyətli, astronomik qazanclı insanlar var. Amma paylaşmağı bacarmırlar. Paylaşmaq üçün çox böyük ürək lazımdır. O ürək Mehriban xanımda var. O zərif xanımda dağ boyda ürək var. Biz, xalq, hər kəs, bütün Azərbaycan buna hər gün şahidlik edir.

İndi məni tənqid edəcəklər ki, sən müxalifət ola-ola niyə Mehriban xanımın mərhəmətindən danışırsan? Nə edim? Ürəyimdən keçənləri deməyim? Hisslərimi, baxışlarımı, arzularımı dilə gətirməyim? Ürəkdə bir, üzdə ayrı danışım? İkiüzlülükmü edim? Əgər siyasət ikiüzlülükdürsə, yalan danışmaqdırsa, hər gözəl halı inkar etməkdirsə, min dona girməkdirsə, belə siyasəti qəbul etmirəm.

Mehriban xanım, hər şeydən əvvəl, Azərbaycan xanımıdır. Bəzən biz düşüncələrimizi içimizdə gizlədirik ki, ətraf nə deyər. Nə deyir-desin, mən düşüncələrimi içimdə boğmaqdansa, deməliyəm. Mehriban xanım bir dəyərdir, bir ikonadır. Bu gün sevinmək lazımdır ki, Azərbaycan xanımları Mehriban xanıma bənzəmək istəyirlər. Əvvəllər Hollivud ulduzlarına bənzəmək, dünyanın ən məşhur ikonaları kimi geyinib, hərəkət etmək istəyirdilər. İndi isə Mehriban xanım xeyirxah əməlləri, tərzi və dünyagörüşü ilə özü bir dünya ikonasına çevrilib. Nəinki Azərbaycan xanımları, dünyada ona oxşamaq istəyən xeyli insan var.

Çox şadam ki, bu sözləri dilə gətirə bildim. Kim nə düşünür-düşünsün, fikir ayrılığı, siyasət fərqliliyi, ideoloji ayrılıqlar da ola bilər. Amma heç nə insanı dürüst olmaqdan və həqiqətləri söyləməkdən çəkindirməməlidir. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Müsəlman Şərqində ilk cümhuriyyətin qurulmasından 106 il keçir. Bir cümlə ilə qeyd etmək lazımdır ki, 23 ay fəaliyyət göstərən bu cümhuriyyət 350 ilkə imza atıb. Müqayisə üçün, Fransa burjua inqilabı 3 il davam edib, 54-dən artıq ilk yoxdur. Əslində, mən çıxışımda cümhuriyyətin tarixinə deyil, – bir azdan onun da ildönümüdür, – parlamentin fəaliyyətinə toxunmaq istəyirdim.

Bugünkü Azərbaycan parlamenti və onun uğurları göz qabağındadır. Parlament üzvləri dünyanın harasına lazımdırsa, gedirlər, Azərbaycan həqiqətlərini söyləyirlər. Amma təsəvvür edin, 1918-ci ilin dekabrında fəaliyyətə başlayan, cəmi 17 ay fəaliyyət göstərən bu parlamentin

cəmi bir xarici səfəri oldu. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov 1918-ci ilin dekabrında xaricə – Paris Sülh Konfransına getmək üçün növbə gözlədi, 6 aydan sonra Parisə çatdı və nəhayət, Azərbaycan həqiqətlərini söyləmək üçün söz istədi. Söz verildi, ancaq çox təəssüflər olsun ki, onun ilk dövrdəki fəaliyyətinə müsbət qiymət verilmədi. Lakin parlamentin sədri geri dönmədi, mübarizəsini apardı və 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycanı de-fakto tanıdı. O dövrdəki parlamentin Azərbaycan parlamentarizminin tarixində ən böyük uğuru ondan ibarətdir ki, 1919-cu ilin iyulunda keçirilən parlament seçkilərində qadın və kişi bərabərliyi elan edildi. Halbuki bu gün bizə demokratiya dərsi keçmək istəyən avropalıların əksəriyyəti İkinci Dünya müharibəsindən sonra bu qanunu qəbul etdilər.

Parlamentdən bizə qalan ən böyük iş nədir? Hesablayanda ki, 40 min seçiciyə bir nəfər deputat düşür, görəndə ki, polyaka, almana, gürcüyə, yəhudiyə deputat düşmür, Azərbaycan parlamenti qərar qəbul etdi: rəngindən, irqindən, cinsindən asılı olmayaraq, hərəyə bir nəfər. Bugünkü Avropa Parlamenti bizim təcrübəmizi götürə bilər. Bəli, biz bu gün müstəqilik. Biz bu gün dünyanın hər bir ölkəsinə gedə bilirik. Azərbaycan parlamenti də müstəqil Azərbaycanın quruculuğunda böyük uğurlara malikdir. Təbii ki, bu uğurların da bünövrəsi 1918-ci ildə qoyulub. Mən əminəm ki, parlamentimiz Azərbaycan həqiqətlərini çatdırmaq üçün bu gün hər cür gücə malikdir.

Hörmətli xanım sədr, Siz hər dəfə Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün parlament nümayəndə heyətinin məlumatı...

**Sədrlik edən.** Çox sağ olun. Sonuncu çıxış. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Biz dəfələrcə şahidi olmuşuq ki, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesi gedən zaman müvafiq ünsürlər ortaya çıxaraq bu prosesə zərər vurmağa çalışır. Bu prosesə zərər vurmaq istəyən əsas element məhz erməni kilsəsidir. Biz bu gün şahidi oluruq ki, sinələrindən xaç asan, guya dini təməllərə söykənərək sülhdən, yüksək maraqlardan danışan erməni keşişləri erməni xalqını daha çox revanşizmə sürükləyirlər. Erməni kilsəsi bu gün erməni cəmiyyətində toplaşmış ən radikal ünsürlərə müraciət edən bir instituta çevrilmişdir. Daha çox ağlaşma, keçmiş faciələr, bədbin notlar, miflər, əsatirlər üzərində diskurs quran erməni kilsəsi, loru dildə desək, erməni xalqının sarı siminə toxunaraq onları manipulyasiya etməyə çalışır. Təbii ki, bununla bağlı çıxış etmək, onu ifşa etmək lazımdır.

Bilirsiniz, dünən mən həmkarımız Erkin Qədirli ilə erməni kilsəsi haqqında çox yaxşı bir söhbət edirdik. 150-200 il bundan əvvəl Cənubi Qafqazda peyda olan erməni keşişləri harada köhnə məbəd, köhnə tikili, kilsə görürdülər, girib orada bir şam yandırırdılar, sonra oranı erməni kilsəsi adı altında mənimsəyirdilər. Bax, biz bu gün bu ünsürlərə qarşı çıxış etməliyik, onların qarşısını almalıyıq və Ermənistan xalqını uçuruma aparan bu hərəkata "dur!" deməliyik.

Çox maraqlıdır ki, bəzən bu keşişlər, bu erməni kilsəsi Avropada – Qərbdə özlərinə dəstək, dayaq tapırlar və bu da bəzi ikiüzlü Avropa institutlarını, Avropa siyasətçilərini ifşa edir. Çünki adətən sekulyarizmdən, layisizimdən dəm vuran, söhbət açan Avropa institutları, Avropa siyasətçiləri məhz din amilini, kilsə amilini bu məsələdə dəstəkləyərək onlara erməni xalqını revanşizmə sürüklə-

məyə şərait yaradırlar.

Hesab edirəm ki, Ermənistan dövlətinin burada çıxış yolu erməni kilsəsindən və erməni diasporundan asılılığa son qoymaqdan ibarətdir. Çünki belə bir deyim var ki, müasir Ermənistan dövləti üç sütun üzərində qurulmuşdur. Dövlətlə yanaşı, bir tərəfdə erməni diasporu və erməni kilsəsi Ermənistan dövlətini saxlayır. Bu, tamamilə qəbuledilməz bir amildir. Hesab edirəm ki, Ermənistan siyasi elitası diasporun və kilsənin manipulyasiyasından, neqativ təsirlərindən özünü azad etməli və nəhayət, qonşuları ilə mehriban qonşuluq siyasəti qurmağa nail olmalıdır. Belə olan halda, digər Avropa siyasətçilərinin, tutaq ki, Fransa kimi oyunçunun da kilsə amili üzərindən manipulyasiya etməsinin qarşısını alınmış olacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tural müəllim, tamamilə düz deyirsiniz, bunlar haqda, təbii ki, danışmaq lazımdır. Mən Sizi və hörmətli həmkarlarımızı sosial şəbəkələrdə çox fəal olmağa çağıram. Bu gün biz gərək bütün reallıqları sosial şəbəkələrdə çatdıraq. Dil biliklərinizdən istifadə edərək siz və mən, indi hamını da deməsəm, kim sosial şəbəkələrdə fəaldırsa, – bizim çox sayda gənc deputatlarımız var, xarici dilləri bilirlər, – xahiş edirəm, xarici dillərdən istifadə edərək sosial şəbəkələrdə, müxtəlif medialarda bildiyiniz bütün bu reallıqların hamısını çatdırmaq lazımdır.

Hörmətli həmkarlar, çox sağ olun. Mən hamıya təşəkkür edirəm.

İndi isə gündəliyin məsələlərinə keçirik. Bildiyiniz kimi, bu gün gündəliyimizdə 7 məsələ var. İlk 2 məsələ Milli Məclisin qərar layihələridir. Gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin

seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi ilə bağlıdır. Məsələyə dair məlumat vermək üçün mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Məsələyə keçməmişdən öncə həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu gün, doğrudan da, tarixi bir gündür. Qazax rayonunda əsgərlərimiz, sərhədçilərimiz öz vəzifə borclarını artıq yerinə yetirirlər. Hamımız üçün böyük bayramdır. Ancaq ən böyük təşəkkür cənab Prezidentə düşür. Hər gün, hər an, hər bir addımı ilə, hər bir sözü ilə bizim üçün tarix yaradır. Tarix yaratmaqdan başqa, sülhlə, məntiqlə, iradə ilə, davranış ilə, diplomatiya ilə ən kəskin, ən çətin, ən mürəkkəb məsələlərin həllinin necə mümkün olduğunu dünyaya nümunə göstərir. İllər boyu düşmənçilik edən insanlarla, dövlətçiliyə malik olmayan qurumlarla... Onlarla da mümkündür.

Bugünkü hadisələr Azərbaycanda, Qazaxda baş verib. Təxminən 12 kilometr yarım ərazidə öz əksini tapıb. Ancaq o 12 kilometr yarım dünya miqyasına bərabərdir. Çünki öz mahiyyətinə, əhəmiyyətinə görə dünyaya yeni nümunə gətirib: sülhü necə bərpa etmək, insanlarla necə davranmaq lazımdır. Ona görə ən böyük təşəkkür cənab Prezidentə düşür.

Hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi, əslində, indi dediyim məsələlərlə birbaşa bağlıdır. Pakistan bizim çox yaxın, qardaş ölkələrimizdən biridir. Bunu həm acılı, həm də xoş günlərimizdə gördük. Pakistanla münasibətlər həm bizə, həm də Pakistana böyük xeyir

gətirir. Bu gün həm iqtisadi, həm də siyasi əlaqələrimiz var. Eyni zamanda, həm də dünyada ümumi dəyərlərin bölüşülməsi çox vacib, əhəmiyyətli bir məsələdir, İslam dünyasına, ümumiyyətlə, müstəqil olmaq istəyən dövlət–lərə bir töhfədir, nümunədir.

Təbii ki, belə bir dostluq qrupunun rəhbərliyinə gətirilən şəxs bu məsuliyyəti ən yüksək səviyyədə dərk etməlidir. Sahibə xanım, mən çox sevinirəm ki, həm Sizin, həm də millət vəkillərinin təşəbbüsü və dəstəyi ilə komitəmizdə bu məsələ müzakirə edildi və çox hörmətli Kamaləddin Qafarov bu vəzifəyə namizəd kimi təklif olundu. Biz komitədə Kamaləddin müəllimin namizədliyini müzakirə edərək yekdilliklə müsbət fikir söyləmişik. Təcrübəli millət vəkilidir, bir neçə dostluq qrupunda uğurla fəaliyyət göstərir. Bununla yanaşı, Avropa istiqamətində də öz məharətini, öz qabiliyyətini göstərmiş bir şəxsdir, təcrübəli bir insandır. Hamımız da çox yaxşı tanıyırıq, dostumuzdur. Ona görə komitəmiz Kaməddin müəllimin namizədliyini yekdilliklə dəstəkləyib. Mən həmkarlarımı həmin namizədi dəstəkləməyə çağırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, əgər başqa fikir söyləyən yoxdursa, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Qərarı qəbul edildi.

Biz Kamaləddin müəllimi təbrik edirik, işində uğurlar arzulayırıq.

Hörmətli həmkarlar, gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2023-cü ildə fəaliyyəti haqqında məlumatıdır. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri hörmətli Bahar Muradova və komitənin əməkdaşları iclasımızda iştirak edirlər. Biz sizi yenə də salamlayırıq. Bahar xanım, məlumatı təqdim etmək üçün sözü Sizə verirəm. Buyurun.

**B.Muradova,** *Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.*

Çox hörmətli sədarət, dəyərli Sahibə xanım, hörmətli millət vəkilləri və media nümayəndələri. Hamınızı ürəkdən salamlayıram və Məclisin bugünkü işinə uğurlar arzulayıram.

Diqqətinizə çatdırmaq istəyirəm ki, “Gender bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə məlumatı ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri üzrə beynəlxalq və milli öhdəliklərin yerinə yetirilməsinə dair görülmüş işləri müfəssəl şəkildə əhatə edir.

Ötən il ölkəmizdə bir sıra önəmli hadisələr baş vermiş, bir sıra maraqlı tədbirlər keçirilmişdir. Eyni zamanda, gender bərabərliyinin təmin olunması, qadınların kişilərlə bərabər səlahiyyətləndirilməsinə dair mövzularda da həm yerli, həm də beynəlxalq səviyyəli konfranslar keçirilmişdir. İlk növbədə Qoşulmama Hərəkatının Əlaqələn-

dirmə Bürosunun iyul ayında nazirlər səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elan etdiyi təşəbbüs çərçivəsində 2023-cü il noyabrın 20–21-də Bakı şəhərində 40-a yaxın ölkənin və bir sıra beynəlxalq təşkilatın yüksək səviyyəli qonaqlarının iştirakı ilə Qoşulmama Hərəkatının "Qadın Hüquqlarının İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi" üzrə Konfransı baş tutmuşdur. Bu konfransda Milli Məclisin rəhbərliyi, xüsusilə Sahibə xanım məruzə ilə çıxış etmiş, millət vəkilləri və fəallar konfransın işində yaxından iştirak etmişlər. Konfransda həm Azərbaycan, həm də  Qoşulmama Hərəkatı üçün çox vacib bir formatın yaradılmasının bünövrəsi qoyulmuşdur.

İkinci belə bir tədbir "Azərbaycan Respublikasında Məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın yekunlarına dair beynəlxalq konfrans  olmuşdur.

2023-cü ildə keçirilən vacib konfrans və tədbirlərin bir çoxu Ümummilli Liderin 100 illiyinə həsr edilmişdir. Bizim təşkil etdiyimiz konfranslardan biri 600-dən çox yerli və xarici qonağın iştirakı ilə keçirilən Azərbaycan Qadınlarının VI Qurultayı idi. Bu möhtəşəm mərasim həm də Heydər Əliyevin özünün təşəbbüsü və iştirakı ilə keçirilən ilk qadın qurultayının 25-ci ildönümünə həsr olunmuşdu. Qeyd edilən bu tədbirlərdə Azərbaycanın qazandığı nailiyyətlər, beynəlxalq aləmdə bu sahədə apardığı işlər və üzləşdiyi çətinliklərlə bağlı fikirlər səsləndirilmiş və Azərbaycan təcrübəsi qonaqların diqqətinə çatdırılmışdır.

Hörmətli millət vəkilləri, bu gün təqdim etdiyimiz məlumat qanunun müvafiq maddələrinə uyğun olaraq, 3 bölmədən ibarət tərtib edilmişdir. Əvvəlki illərlə müqayisədə məlumat daha geniş və daha əhatəli məsələləri özündə əks

etdirir. Dövlət qurumlarının qeyd olunan sahə ilə bağlı fəaliyyətinin genişlənməsi, eyni zamanda, hesabatlılıq səviyyəsinin artması da buna ciddi təsir göstərmişdir.

İlk dəfə olaraq məlumata Mediasiya Şurasının hesabatı, gender məsələləri üzrə məsul şəxslərin siyahısı, sosial xidmət müəssisələrinin və yardım mərkəzlərinin xidmətlərindən yararlanan şəxslər barədə hesabat, həmçinin Naxçıvan Muxtar Respublikasının məlumatları da daxil edilmişdir. Ötən dinləmədə səslənən təklifləri nəzərə alaraq, bu dəfə məlumata aqrar sektorda sahibkarlığın, xüsusilə də qadın sahibkarlığının inkişafı ilə bağlı məlumatlar daha müfəssəl şəkildə daxil edilmişdir.

Məlumat 150 səhifədən ibarət olmaqla 62 dövlət orqanı və 77 yerli icra hakimiyyəti, o cümlədən Naxçıvan Muxtar Respublikasından daxil olan informasiyaları əhatə etmişdir. Qeyd etmək istəyirəm ki, bütün məlumatlar, statistik göstəricilər Dövlət Statistika Komitəsinin məlumatları ilə uyğun şəkildə əksini tapmışdır.

Dövlət komitəsi tərəfindən ötən il 6 araşdırma və təhlil aparılmışdır. Bu barədə burada kifayət qədər məlumat var. Siz QR kod vasitəsi ilə komitənin internet səhifəsindən həmin araşdırmalarla geniş şəkildə tanış ola bilərsiniz.

Çox hörmətli Sahibə xanım, dəyərli millət vəkilləri. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələrindən bəhs edən I bölmədə normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender əsaslı ayrı-seçkilik halları ilə bağlı mövcud vəziyyət, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qadın və kişilərin təmsilçiliyi barədə məlumatlar öz əksini tapmışdır.

Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində isə 2023-cü ildə “Azərbaycan Respublikasının Əmək Məcəl-

ləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Məişət zorakılığının qarşısının alınması istiqamətində normativ hüquqi akt layihələri hazırlanmışdır.

İnstitusional mexanizmlərin gücləndirilməsi sahəsində ötən il Uşaq və Ailələrə Dəstək, Qadın Resurs Mərkəzləri, gender məsələləri üzrə məsul şəxslərin və bələdiyyələrdə yaradılmış gender komissiyalarının geniş fəaliyyəti, eyni zamanda, gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində əlaqədar dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının və media qurumlarının yerinə yetirdiyi layihələr barədə müfəssəl məlumat kitabçada öz əksini tapır. Mən bu barədə geniş danışmaq istəmirəm.

Həmçinin "860" dəstək xəttinə – Qadın Dəstək Xətt Xidmətinə olan müraciətlərin sayı ötən il də artmışdır. Buna, ilk növbədə, əhalinin məlumatlılıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər və onların bu barədə öz müraciətlərini aidiyyəti üzrə etmələri ilə bağlı məlumatlılıq səviyyəsi ciddi təsir göstərmişdir.

Son illərdə ilk dəfə olaraq ötən il gender əsaslı ayrı-seçkiliyin ən geniş yayılmış forması olan məişət zorakılığı zəminindəki cinayətlərdə azalma müşahidə olunmuşdur. Bu isə, ilk növbədə, müdafiə mexanizmlərinin fəaliyyətinin koordinasiya edilməsinin və əlaqədar qurumların bu məsələni ciddi şəkildə diqqətdə saxlamasının nəticəsidir. Misal üçün, 180-i qısamüddətli, 16-sı uzunmüddətli olmaqla, ümumilikdə, 196 mühafizə orderi verilmişdir. 2022-ci ildə isə bunun sayı 158 olmuşdur. Bunun özü də müvafiq orqanların bu məsələlərdə çevik qərar vermələrinə daha çox meyil etdiyinin göstəricisidir.

Azərbaycan üzrə 2023-cü ildə 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı ötən illə müqayisədə 15 faiz azalmışdır. Bu da müsbət məqamlardan biridir.

Nikah yaşının 1 il azaldılması ilə bağlı yerli icra hakimiyyətləri tərəfindən 241 yetkinlik yaşına çatmayan şəxsə icazə verilmişdir. Bu da əvvəlki illə müqayisədə xeyli azdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023-cü il üzrə doğumu qeydə alınmış cinslər arasındakı fərq 7008 nəfər olmuşdur. Cins nisbəti bu dəfə bir az artmışdır, hər 100 qıza 113 oğlandır.

2022-ci illə müqayisədə 2023-cü ildə nikahların sayında azalma, boşanmaların sayında isə artım olmuşdur. Əlbəttə, bu məsələ cəmiyyəti ciddi düşündürür və suallar da verilir. Qeyd etmək istəyirəm ki, 2022-ci il COVID-lə bağlı məhdudiyyətlərin, xüsusilə nikah bağlanması ilə bağlı məhdudiyyətlərin aradan qaldırıldığı il olduğu üçün həmin il evlənmələrin, nikahların sayı çox olmuşdur. Ondan sonrakı dönəm əvvəlki vəziyyətə qayıtdığı üçün artıq boşanmalarla nikah arasında belə bir disbalans yaranmışdır.

Eyni zamanda, abortların sayında ötən ilə nisbətən 27 faiz artım olmuşdur ki, bu da çox ciddi narahatlıq doğuran məsələdir.

Dövlətin idarə olunması və qərarların qəbulu səviyyəsində əvvəlki illərə nisbətən 2023-cü ildə qadınların ümumi iştirakçılıq sayında müsbət dinamika müşahidə olunmuşdur. Bu məsələlər slaydlarda göstərilir və hesabatda da öz əksini tapmışdır.

Məlumatın II bölməsi gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatından bəhs edir. Bu bölmədə əmək, təhsil və iqtisadi sahədə, həmçinin qeyri-hökumət təşki-

latları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi ilə bağlı vəziyyət öz əksini tapır. Bütün rəqəmləri söyləmək mümkün deyil. Mən bir neçə rəqəmi demək istəyirəm. 2023-cü ildə qadınların orta aylıq əmək haqqı 739,3 manat, kişilər arasında bu göstərici isə 1066,9 manat təşkil etmişdir. Qeyd etməliyəm ki, bu rəqəm, hələlik, ilkin rəqəmdir. Ola bilər ki, payıza doğru bunda müəyyən dəyişiklik olsun.

Məlumatın bu bölməsində 2023-cü ildə işsiz şəxs kimi qeydiyyata alınmış, işlə təmin edilmiş, özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin gender bölgüsü göstərilmişdir. Amma, əlbəttə, bizim məqsədimiz gender bölgüsünü daha çox qabartmaq deyil, daha çox ehtiyacı olanların işlə təmin olunması, məşğulluğa cəlb edilməsidir. Qeyd etməliyəm ki, bu sahədə müvafiq dövlət orqanları çox ciddi fəaliyyət göstərmişlər. Xüsusi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və KOBİA bu istiqamətdə çoxsaylı layihələr icra etmişdir. Ona görə də rəqəmlərdə müəyyən yüksəlmələr vardır. Aparılan təhlil və araşdırmalar da göstərir ki, əmək bazarında qadınların iştirakı və töhfəsi artmaqdadır.

Ölkə üzrə əmək pensiyaçıları arasında qadınların payı 57 faiz, kişilərin payı isə 43 faiz olmuşdur. Bu da sual doğurduğu üçün bunu demək istəyirəm. Nəzərə alsaq ki, qadınlar yaşa görə əmək pensiyaçıları arasında 16 faizlə və ailə başçısını itirməyə görə əmək pensiyaçıları arasında 60 faizlə üstünlük təşkil edirlər. O baxımdan əmək pensiyaçılarının arasında qadınların sayı çoxdur.

Hörmətli millət vəkilləri, təhsil sahəsindəki rəqəmlərə gəldikdə isə xüsusilə qeyd etmək istərdim ki, ümumtəhsil məktəblərində şagirdlər arasında oğlanların sayı getdikcə artmaqdadır. Mən düşünmürəm ki, bu, yalnız onların

doğumu ilə bağlı olan məsələdir, həm də bu sahədə olan problemləri göstərir. Dərsdən yayınma, erkən nikaha cəlb olunma, yaxud da heç bir səbəb olmadan valideynlərin qızların məktəbə getməsinin qarşısını alması kimi səbəblər burada öz təsirini göstərir.

2023-cü ildə cins bölgüsü arasındakı fərq bir az da artmışdır, 6,8 faiz olmuşdur. Ötən il 112-dən bir az artıq idi. İndi 6 faizdən 6,8-ə çatıb. Hesab edirəm, bu məsələ də ciddi diqqət mərkəzində olmalıdır.

Növbəti slayd da isə orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin cins bölgüsü əks olunur. Kişilər 71 faizlə peşe yönümlü təhsilə, qadınlar 62,6 faizlə orta ixtisas təhsilinə üstünlük verirlər. Bu göstəricilər həm özəl, həm də dövlət tabeliyində olan təhsil müəssisələrinə aiddir.

Digər cədvəldə isə təhsilin bakalavr pilləsində qadınların 52,6 faiz, magistr pilləsində isə kişilərin 51,6 faizlə cins nisbəti əksini tapır. Bunları söyləməkdə məqsədim təhsilin müxtəlif pillələrində qadın və kişilər arasındakı fərqi göstərməkdir. Çünki bəzi neqativ səbəblərdən və ya mövcud stereotiplərdən müəyyən mərhələlərdə onlar bir-birini əvəzləməyə gətirib çıxarır.

Qanunun 15-ci maddəsinin nəzərdə tutduğu kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına dair vəziyyətdə canlanma nəzərə çarpır.

Müxtəlif fəaliyyət növləri üzrə fərdi sahibkarların 23 faizi qadınlar, 77 faizi isə kişilərdir. Eyni zamanda, elektron kənd təsərrüfatı informasiya sistemində qeydiyyatdan keçmiş subyektlərin 74 faizi kişilər olmuşdur. Söylədiyim kimi, aqrar sahədəki vəziyyətlə bağlı məlumatda kifayət qədər informasiya öz əksini tapır. Bu sahədə həm inkişaf,

həm də geriləmə səbəbləri göstərilir.

Gender nisbətinin bərabərliyə yaxınlaşması üçün əlaqədar dövlət orqanlarının həyata keçirdiyi məqsədyönlü fəaliyyət bu sahədə öz nəticəsini verməkdədir.

2023-cü ildə dövlət əmlakının özəlləşdirilməsində hər iki cinsin nümayəndələrinin sayında azalma, icarəyə götürülmə hallarında isə artım müşahidə olunur.

Dövlət Komitəsinin Mərkəzi Bank vasitəsi ilə 25 banka göndərilmiş sorğusuna verilən cavabların təhlili isə bu sahədə nəzərə çarpan müsbət irəliləyişlərin olduğundan xəbər verir. Banklar və onların cəmləşdiyi assosiasiya dövlət komitəsi ilə çox sıx əlaqədə işləyir. Bu sahədə qadınların, xüsusilə sahibkarlıqla, aqrar sahədə fermer təsərrüfatı ilə məşğul olmaq istəyənlərin əlçatanlığının təmin edilməsi ilə bağlı ciddi addımlar atılır. Eyni zamanda, bank sektorunun özündə qadınların əməkdaş kimi iştirakı getdikcə artmaqdadır. Bank sistemindən, hesab edirəm ki, digər sahələrdəki rəhbərlik müəyyən örnək götürə bilər.

2023-cü ilin sonuna doğru bank sektorunda çalışan işçilərin 62 faizi kişilər, 38 faizi qadınlar olmuşdur. Rəhbərlikdə də kifayət qədər qadınlar iştirak edirlər.

Hörmətli millət vəkilləri, qanunun 16-cı maddəsi siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının üzərinə qoyulan öhdəlikləri əhatə edir ki, bu da bərabər hüququn və bərabər imkanların təmin edilməsinə cavabdehliyi özündə əks etdirir. Bununla bağlı vəziyyət ilk dəfə olaraq rəqəmlərdə əksini tapır. Xüsusilə siyasi partiyaları vurğulamaq istəyirəm. Bilirsiniz ki, siyasi partiyalar yenidən qeydiyyatdan keçdikdən sonra, – ötən il Azərbaycanda 26 siyasi partiya qeydiyyatda olmuşdur, – fəaliyyət göstərmişdir. Onların üzvləri arasın-

da, ümumilikdə, kişilər üstünlük təşkil edir. Amma biz bütün siyasi partiyalardan aldığımız məlumatda əksini tapan rəqəmlər onu göstərir ki, yalnız Yeni Azərbaycan Partiyasında qadınlar kişiləri say baxımından üstələmişdir. O baxımdan bunun özü də ciddi, gözəl bir örnəkdir. Digər siyasi partiyalarla bağlı bu fikri söyləmək üçün bizə hələ xeyli vaxt lazım gələcəkdir.

Düşünürəm ki, həm partiyaya qəbulda, həm də onların partiyadaxili fəaliyyətə cəlb olunmasında qadınların imkanlarını artırmaq lazımdır. Xüsusilə beynəlxalq təşkilatların tövsiyələrində də bu məsələlər öz əksini tapır. Amma bu gün Azərbaycan Respublikasında dünyada, regionda tutduğu yer və qarşıda dayanan hədəflər baxımından əhalisinin yarıdan çoxunu təşkil edən qadınların, bu sahə ilə məşğul olmaq və töhfə vermək istəyən nümayəndələrin siyasi partiyalar, ictimai qurumlar, həmkarlar ittifaqları vasitəsi ilə ölkədə gedən proseslərdə yaxından iştirakına şərait yaradılmalıdır. Bu, yalnız fayda verə bilər.

2024-cü ilədək dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatlarının sayı 3750 olmuşdur. Onlardan 12,6 faizinin sədri qadınlar olmuşdur.

Ötən il dövlət komitəsinin agentlik və qeyri-hökumət təşkilatları ilə birgə müəyyən edilmiş mövzular üzrə maliyyələşən layihələrinin sayı 56 olmuşdur. Bunlar ailə, qadın, uşaq məsələləri, gender bərabərliyi məsələlərinə həsr edilmişdir.

2023-cü il ərzində həmkarlar ittifaqları üzvlərinin sayında kişilər 46,7 faiz, qadınlar isə 53,3 faiz olmuşdur. Həmkarlar İttifaqının seçkili orqanlarında qadınların sayı yenə də üstünlük təşkil edərək 51 faizdir.

Hörmətli millət vəkilləri, məlumatın 3-cü bölməsi 2023-cü ildə Azərbaycanda gender bərabərliyinin təmin

edilməsi sahəsində əldə olunmuş nəticələrdən, qarşıya qoyulan vəzifələrdən və tövsiyələrdən bəhs edir. Burada gender siyasətinin gücləndirilməsi, məişət zorakılığı, erkən nikah, selektiv abortların qarşısının alınması, təhsil və məşğulluq sahəsində gender bərabərliyinin gücləndirilməsi istiqamətində tövsiyələr öz əksini tapmışdır. Bu tövsiyələrin yerinə yetirilməsi Azərbaycanda bu sahədə olan vəziyyətdə müəyyən dəyişikliklər etməyə, fərqlər yaratmağa şərait yaradacaq. Mən düşünürəm ki, millət vəkilləri bu tövsiyələrə diqqətlə baxaraq onları öz fəaliyyətlərində də izləməyə və təşviq etməyə çalışsalar, işə çox böyük fayda vermiş olarlar.

Bütövlükdə, bu məlumat ötən il Azərbaycanda bütün dövlət orqanlarının, bu sahə ilə məşğul olan, maraqlanan ekspertlərin, mütəxəssislərin və beynəlxalq təşkilatlarla əlaqədar fəaliyyət göstərən dairələrin ümumi fəaliyyətinin nəticəsi kimi tərtib olunmuşdur. Bu, yalnız dövlət komitəsinin fəaliyyəti deyil. Biz yalnız bu işi əlaqələndiririk. Bir daha da xatırlatmaq istəyirəm ki, dövlət komitəsi heç vaxt xidmətlə məşğul olan qurum deyil. O, yalnız bu sahənin siyasətinin müəyyənləşdirilməsinin, normaların yaradılmasının, monitorinqlərin aparılmasının, ölkədaxili və beynəlxalq hesabatların tərtib olunmasının, tövsiyələrin və qəbul olunmuş qərarların yerinə yetirilməsinin monitorinqini aparan bir qurumdur. Bəzən ayrı-ayrı dövlət orqanlarının fəaliyyət sferasına aid olan məsələlər dövlət komitəsinə ünvanlanır. Biz bunu yönləndiririk, amma dövlət komitəsi buna cavabdehlik daşımır. Ona görə də millət vəkillərinin əhali arasında görüşlərdə bu sahədə müəyyən suallara cavab verərkən bunu da vurğulamalarını xahiş edərdim. Bu halda siz həm də bizim fəaliyyətimizə ciddi dəstək vermiş olarsınız.

Mən sözümü yekunlaşdırıram. Eyni zamanda, qarşıdan gələn Müstəqillik Günü, Azərbaycanın müstəqilliyinin 106-cı ildönümü münasibəti ilə hər birinizi təbrik edirəm. Hesab edirəm ki, vaxtı ilə cümhuriyyət qurucuları bu respublikanı elan edərkən, qadınlara da kişilərlə bərabər səs hüququ verərkən müstəqil bir dövlət qurmaq arzusunda olmuşlar. Amma o arzunun yerinə yetirilməsi yalnız Heydər Əliyevin və onun müəyyən etdiyi siyasəti davam etdirən, bugünkü müstəqil, qüdrətli və zəfərə layiq Azərbaycanı quran ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. Ona görə Azərbaycan dövlətinin bütün dünyada hüquqlarının və mövqeyinin, o cümlədən Azərbaycan vətəndaşlarının hüquqlarının, ailə və milli-mənəvi dəyərlərinin qorunması istiqamətində fəaliyyətinizdə hər kəsə uğurlar arzulayıram. Bir daha təbrik edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bahar xanım. Hörmətli həmkarlar, illik məlumata Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən sözü hörmətli Hicran xanım Hüseynovaya verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli Bahar xanım, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə, illik məlumatı ətraflı şəkildə təqdim etdiyi üçün Bahar xanıma və komitənin bütün əməkdaşlarına təşəkkür edirəm.

Sənədin həcmi, görülən işlər, həyata keçirilən tədbirlər və layihələr, əldə olunan nəticələr, aparılan təhlillər göstərir ki, Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində çox müsbət dinamika var. Məqsəd ölkədə qadın və kişilər üçün bərabər hüquqların və im-

kanların təmin olunmasıdır. Bu məqsədə nail olmaq, bütövlükdə, cəmiyyətimizin, dövlətimizin inkişafı deməkdir. Eyni zamanda, təqdim olunan məlumatda mövcud vəziyyət araşdırılır, qarşıya çıxan çətinliklər qeyd olunur və bu halların qarşısının alınması üçün təkliflər verilir.

Hörmətli Bahar xanımın qeyd etdiyi kimi, idarəetmə və qərar qəbul etmədə qadınların iştirakçılığının artması müşahidə olunur. Həm inzibati vəzifələrə təyin olunan, hüquq mühafizə, prokurorluq orqanlarında xidmət edən, xüsusi ilə də hakim qadınların sayı artır. Lakin bununla yanaşı, təqdim olunan məlumatdan da göründüyü kimi, hələ də bəzi sahələr üzrə problemlər var. Əlbəttə ki, bu məsələlər səsləndirilməli, ictimailəşdirilməlidir. Mən burada xüsusi ilə parlamentin sədri, hörmətli Sahibə xanım, Sizə təşəkkür etmək istəyirəm. Sizin təşəbbüsünüzlə komitəmiz tərəfindən gender bərabərliyinin təminatı, ailə, qadın və uşaq məsələləri ilə bağlı davamlı iclaslar, görüşlər keçirilir və müzakirələr aparılır.

Azərbaycanda əmək bazarında bərabərsizliyin aradan qaldırılması istiqamətində bir çox işlər görülür və müsbət nəticələr də var. Müvafiq olaraq qanunvericilikdə də əlavə və dəyişikliklər edilmişdir. Belə ki, qadınların əməyi qadağan olunan 674 peşə və iş yeri azaldılaraq 204-ə çatdırılmışdır. Qadağan edilən peşə və iş yerləri yalnız hamilə və ya 1 yaşınadək uşağı olan qadınlara tətbiq olunur.

Həmçinin Əmək Məcəlləsində qadınların məşğulluq imkanlarını məhdudlaşdıran normaların aradan qaldırılması, qadın və kişilər üçün bərabər əmək şəraitinin yaradılması ilə bağlı dəyişikliklər edilmişdir. Biz çalışırıq ki, qadınlar əmək bazarında rəqabətə dayanıqlı olsunlar, bilik və bacarıqlarını inkişaf etdirsinlər, daha yüksək əmək haqqı olan sahələrdə çalışsınlar. Belə nümunələr də var.

Biz belə xanımları təbliğ etməliyik. Bütün bunlar əmək bazarında iştirakçılıqda və peşə seçimində bərabərliyin təmin edilməsi, qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması üçün imkanlar yaradır.

Pensiyalarla bağlı gender bərabərliyinin müəyyən edilməsi sahəsində də çox müsbət tendensiyalar var. Hətta bu yaxınlarda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda yeni dəyişiklik edildi. Belə ki, artıq analarla yanaşı, atalar da uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququna malik olacaqlar. Həyat yoldaşlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olması üçün qanunvericiliyə dəyişikliklərin edilməsi ilə bağlı biz də Milli Məclisdə təkliflər vermişik.

Ölkəmizdə savadlılıq səviyyəsi çox yüksəlir. Kişilər və qadınlar təhsilin bütün pillələrində bərabər şəkildə fəal iştirak edirlər. Oğlan tələbələrlə yanaşı, qızlarımız da dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində təhsil alırlar. Əlbəttə ki, biz onlarla fəxr edirik. Lakin hələ də təhsildən yayınma halları, həmçinin qızların erkən nikaha məcbur olunması bizi çox narahat edir. Bahar xanım da çıxışında bunu qeyd etdi. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi olaraq biz də, əlbəttə, öz tərəfimizdən bu məsələlərə tez-tez fikrimizi bildiririk.

Təklifimiz Ailə Məcəlləsində nikah yaşının aşağı salınması üçün üzrlü səbəblərin dəqiq göstərilməsi və ya bu bəndin tamamilə ləğv edilməsidir. Belə ki, adətən digər ölkələrin qanunvericiliyində nikah yaşının aşağı salınma səbəbləri göstərilir. Məsələn, uşağın dünyaya gəlməsi, hamiləlik, faktiki nikah münasibətləri, nikaha daxil olanlardan birinin təcili xarici ölkəyə getmə zəruriliyi, nikaha daxil olanlardan

birinin həyat təhlükəsi və digər səbəblər.

Bildiyiniz kimi, Azərbaycan "Uşaq hüquqları haqqında" Konvensiyaya qoşulub və bu qanun qəbul edilib. Bu sənədə görə, 18 yaşına çatmayan hər bir şəxs uşaq sayılır. Buna əsaslanaraq qeyd etmək olar ki, biz dolayı yolla erkən nikah faktını leqallaşdırırıq. Buna görə də bu məsələyə yenidən baxılması artıq zərurətə çevrilmişdir.

Qız uşaqlarına münasibətdə mövcud ayrı-seçkiliyin qarşısının alınması, doğulan uşaqlar arasında cins nisbətinin pozulması məsələsi də bizi çox narahat edir. Bəzi uşaqların doğum haqqında sənədləri, şəxsiyyət vəsiqələri yoxdur. Ona görə də monitorinq qruplarının, xüsusi ilə də rayonlarda fəaliyyət göstərən monitorinq qruplarının işini gücləndirmək lazımdır. Mən bilirəm ki, dövlət komitəsi tərəfindən bu sahədə çox böyük işlər görülür. Düşünürəm ki, bunlar qanunvericilikdə də öz əksini tapmalıdır.

Vacib məsələlərdən biri də məişət zorakılığı cinayətləri, onun ağır fəsadlarıdır. Təhlillər də göstərir ki, qadın və uşaqlar, eləcə də kişilər daha çox ailə üzvləri tərəfindən zorakılığın bu və ya digər formalarına məruz qalırlar. Belə halların qarşısının alınması üçün "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edildi. Bunlar məişət zorakılığının bu və digər formasından zərər çəkmiş şəxsin hüquqlarının müdafiəsinin gücləndirilməsi, eyni zamanda, zərər törədən şəxsin məsuliyyətinin artırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Eyni zamanda, yardım mərkəzlərinin sayının artırılmasına, müxtəlif rayon və şəhərlərdə daha çox qaynar xətlərin yaradılmasına ehtiyac vardır. Qanunlarımız çox güclüdür. Yaxşı olardı ki, icra mexanizmləri də çox çevik və daha güclü olsun.

İllik məlumatda da qeyd olunur ki, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsinə çox böyük ehtiyac vardır. Bu qanun 18 il əvvəl qəbul olunub və yeni çağırışlar, yeni reallıqlar yaranıb. Ona görə qanuna əlavə və dəyişikliklərin edilməsi zərurəti yaranmışdır. Bununla bağlı tərəfimizdən də bəzi təhlillər aparılır.

Bütövlükdə, illik məlumat peşəkar səviyyədə tərtib olunmuşdur. Bütün sahələr üzrə çox detallı təhlil aparılmış, təklif və tövsiyələr hazırlanmışdır. Qeyd edim ki, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə məlumatı cari il mayın 20-də dövlət komitəsinin sədr müavini xanım Sədaqət Qəhrəmanovanın və böyük məsləhətçi Sevinc xanım Məmmədovanın, Milli Məclis Aparatının məsul şəxslərinin iştirakı ilə Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında baxılmış və Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

İllik məlumat bütün həmkarlarım tərəfindən bəyənilib və inanıram ki, bu sənədə siz də səs verəcəksiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım.

Hörmətli həmkarlar, biz müzakirələrə keçirik. Çıxışların 5 dəqiqə olması təklifi var. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də təqdim olunan illik məlumatı dəstəkləyirəm, eyni zamanda, hörmətli Bahar xanıma çox ətraflı təqdimatına görə təşəkkür edirəm.

Qeyd olunduğu kimi, bu məlumat əvvəlki illərdən fərqlidir. Məlumata bir sıra yeni bölmələr əlavə olunub.

Bu bölmələrin əlavə olunması həm dövlət komitəsinin fəaliyyətinin səmərəsini göstərir, həm də qeyd olunduğu kimi, digər dövlət qurumlarının bu sahədə məsuliyyətinin daha da genişlənməsindən və əməkdaşlıq imkanlarının artmasından xəbər verir.

Bütün bunlarla yanaşı, mən məlumatın strukturu, eyni zamanda, gender məsələlərinin, xüsusi ilə iqtisadi tərəfləri ilə bağlı fikirlərimi bölüşmək istərdim. Əvvəla, məlumatda daha çox institusional təhlil aparılıb. Təklif edərdim ki, institusional təhlillə yanaşı, sektoral təhlilin gücləndirilməsi də həyata keçirilsin və növbəti illər üzrə məlumatlarda nəzərə alınsın.

Eyni zamanda, məlumatda təqdim olunan bir sıra cədvəllərin əlavələr kimi verilməsi daha məqsədəuyğun olardı. Xüsusən də fərqli qurumlarda çalışan işçilərin sayı, gender bölgüsü və məlumatın əlavələri kimi təqdim olunması məlumatın oxunaqlığının artırılmasına gətirib çıxara bilər. Məlumat kifayət qədər geniş və ətraflıdır.

Həmçinin məlumatda yalnız kəmiyyət göstəricilərindən deyil, keyfiyyət göstəricilərindən də istifadə olunması məqsədəuyğun olardı. Məsələn, qeyri-hökumət təşkilatlarında çalışan qadınların sayı ilə yanaşı, məhz qeyri-hökumət təşkilatlarının xidmət göstərdiyi, yəni onların benefisiarı olan qadınların sayının təqdim olunması və digər steykholderlər üzrə uyğun təqdimatın, statistikanın verilməsi məqsədəuyğun olardı.

Bu gün iqtisadi baxımdan, bütövlükdə, gender aspektindən yanaşdıqda qeyri-rəsmi məşğulluq, eləcə də sahibkarların sayında qadınların sayının nisbətən az olması xüsusi ilə diqqət çəkir. Hazırda Azərbaycanda fəaliyyət göstərən hər 5 sahibkardan birinin qadın olmasına baxmayaraq, böyük sahibkarlar arasında qadın sahibkar

yoxdur. Eyni zamanda, orta sahibkarlıqda qadınların sayı 8 faiz, kiçik sahibkarlıqda isə 16 faizdir. Yəni bu ondan xəbər verir ki, orta və iri sahibkarlıqda qadınlar nisbətən zəif təmsil olunurlar. Kiçik sahibkarlıqda fəaliyyət göstərən qadınların sayı isə nisbətən çoxdur. Bu kontekstdən, xüsusən də orta sahibkarlıqda qadınların sayının artırılması üçün fərqli alətlərdən istifadə, o cümlədən kredit resurslarına çıxışla bağlı imkanların genişləndirilməsi çox vacibdir.

Nəzərə alaq ki, orta aylıq əmək haqqında da qadınlarla kişilər arasında fərq var. Hazırda 2023-cü ilin yekunlarına əsasən qadınların orta aylıq əmək haqqı 739 manat, kişilərin orta aylıq əmək haqqı isə 1066 manatdır. Bu ondan xəbər verir ki, qadınlara nisbətən kişilər daha çox əmək haqqı alır. Bu, qeyd olunduğu kimi, pensiya təminatına da təsir göstərir. Çünki qadınların orta aylıq əmək haqqının nisbətən az olması onların sosial yığımlarına və pensiya məbləğlərinə təsir göstərir. Hörmətli Bahar xanım qeyd etdi, pensiyaçıların böyük əksəriyyəti qadınlardır. Tamamilə doğrudur.

Bütün bunlarla yanaşı, Dövlət Sosial Müdafiə Fondunun strukturunda, çəkisində qadınların payı nisbətən azdır. Ona görə təklif etmək istərdim ki, qadınların pensiyası hesablanan zaman onların pensiya kapitalı  xüsusi əmsala vurulsun. Bu, onların pensiya kapitalının artmasına və daha çox pensiya almasına gətirib çıxara bilər. Çünki aşağı əmək haqqı, aşağı sosial yığım, eyni zamanda, aşağı pensiya deməkdir. Xüsusi əmsaldan istifadə olunması qadınların pensiya yaşında daha çox pensiya almasına və onların sosial təminatının daha da gücləndirilməsinə gətirib çıxara bilər.

Pensiya kontekstində digər məqam pensiya yaşına

differensial yanaşmadır. Bir sıra Mərkəzi və Şərqi Avropa ölkələrində differensial yanaşma var, yəni qadınlar kişilərə nisbətən daha tez pensiyaya çıxırlar. Düşünürəm ki, bunun maliyyə yükünün hesablanması və bu istiqamətdə də addımların atılması məqsədəuyğun olardı.

Bütövlükdə, Azərbaycanda gender siyasəti birmənalı şəkildə ümumi strategiyaya uyğun olaraq, dəstəklənir. Təbii ki, əldə edilən uğurlar da məhz bu istiqamətdə aparılan dövlət siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycanda gender bərabərliyinin qorunması, ailə, qadın və uşaq probleminin çox ciddi şəkildə təhlil olunması olduqca vacibdir. Bu gün də hörmətli Bahar xanım tərəfindən təqdim edilən bu məlumat bəlkə indiyə qədər təqdim olunmuş ən geniş, əhatəli və bütün sahələri ehtiva edən materiallarla zəngindir və xeyli yeniliklərlə doludur. Mən bunu təqdirlə qarşılayıram. Çünki mənim fikrimcə, bu işlə təkcə bir komitə məşğul olmamalıdır. Bütün dövlət qurumlarında ailə, qadın və uşaq problemləri ilə bağlı xüsusi hesabatlar hazırlanmalıdır. Niyə görə bunu deyirəm? Bu sənəddə əksini tapan məlumatlar olduqca vahiməli bir vəziyyətin olduğundan xəbər verir. Təsəvvür edin ki, Bakı və Azərbaycanın digər bölgələri üzrə ölkədə 97 min aliment ödəyicisi var. Yəni 97 min ailənin artıq boşanmış vəziyyətdə olmasının hansı faciə yaratdığını görməliyik.

Nikah sayında azalma, təbii ki, pandemiya ilə əlaqələndirildi. Amma bu gün də hamımız bilirik ki, evlənənlərin sayı azdır. İşsizlik və müəyyən dərəcədə digər sosial problemlər imkan vermir ki, insanlar ailə həyatı qursunlar.

Bu yaş artımında da özünü daha çox hiss etdirir. 30-35 yaşdan sonra evlənmək tendensiyası daha da artmaqdadır.

Boşananların sayının 5705 olması, yəni bu artım olduqca ciddi bir rəqəmdir, ailə institutunun kifayət qədər böyük tənəzzül yaşadığını göstərən amillərdən biridir.

Təsəvvür edin ki, mediasiya təşkilatlarına 43 min 600 mübahisə üzrə müraciət olunubdur. Yəni 43 min mübahisəli ailə, hələ onu da üçə vurun. Çünki Azərbaycanda mental xüsusiyyətlərə görə müraciət etməyən o qədər ailə var. Təqribən 150 mindən artıq ailənin bu vəziyyətdə yaşadığı görünməkdədir. Bunların da cəmi 2472-də barışıq əldə olunub.

Abortların sayının 27 faiz artması, xüsusi ilə də selektiv abortların artması gələcək nəslimiz üçün çox ciddi, böyük bir təhdid yaratmaqdadır. Məktəblərdə olan vəziyyət: Digər tərəfdən, yaradılan qurumların burada rolu, reabilitasiya mərkəzləri, sığınacaqlar və sair insanlar üçün müraciət edəcək populyar yer olmadığını göstərən əsas amillərdən biridir. Təsəvvür edin ki, “860” dəstək xəttinə 302 müraciət olunubdur. Hesab edirəm ki, bu qədər gündəlik intihar, ailə münasibətləri və başqa məsələlərdə bu, olduqca böyük rəqəmdir. İntiharların sayının 2023-cü ildə 640 rəqəmə çatması da kifayət qədər ciddi rəqəmdir və bunun da üzərində düşünməliyik.

Bir məsələ mənim xüsusi diqqətimi çəkdi. Burada qeyd olunur ki, yenilik olaraq Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hesabatları da bura daxil edilib. Biz bu məsələyə də qayıtmalıyıq. Bizim Konstitusiyanın 138-ci maddəsində Naxçıvan Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar göstərilir. Burada vergi, iqtisadiyyatın inkişafı, sosial təminat, ətraf mühit, turizm, səhiyyə, elm, mədəniyyət var,

amma ailə, qadın, gender problemləri ilə bağlı məsələlər Konstitusiyada yoxdur. Bununla bağlı müəyyən lazımsız, bəlkə də artıq komitələrin bir mərkəzi hakimiyyətə aid olmasını təmin etmək lazımdır. Nə vaxta qədər biz hansısa qurumların süni şəkildə genişlənməsini nəzərdə tutacağıq? Söhbət ombudsmandan, bir çox quruluşlardan gedir. Mətbuat Şurası ləğv olundu, amma, bütövlükdə, bunu Azərbaycanın mərkəzi, unitar bir dövlət mahiyyətinə uyğunlaşdırmalıyıq. Ən azı indiki Konstitusiyamıza uyğun olaraq, orada nəzərdə tutulmayan quruluşların olmasını anlamaq olmur. Ailə, qadın və uşaq problemi elə bizim mərkəzi problemimiz deyil?

Digər tərəfdən, bizim qadın resurs mərkəzlərinin fəaliyyətinin güclənməsindən söhbət gedir. Bu da olduqca vacibdir.

Qadın sahibkarların sayının artmaması bürokratik əngəllərlə bağlıdır. Qadınların böyük əksəriyyəti kişilərin çəkdiyi əzabı dövlət qurumları qarşısında çəkməkdə maraqlı deyil, gücləri çatmır, xarakterləri imkan vermir. Ona görə sahibkar ola bilmirlər. Yoxsa Azərbaycanın çox sayda qabiliyyətli qadınları var. O baxımdan mən hesab edirəm, bizim son illərdə gəldiyimiz qənaət odur ki, qadınların rolu artmalıdır, cəmiyyətdə, istər hakimiyyət orqanlarında, istərsə də icra hakimiyyətində güclənməlidir. Hazırda bir icra hakimiyyətlərində qadın icra hakimiyyəti başçısı yoxdur. Bu, yaxşı nümunə deyil. Əksinə 5-10 qadın icra hakimiyyəti başçısı olmalıdır.

Mən məlumatı təqdir edirəm, dəstək verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, dəyərli millət vəkilləri. Mən ilk növbədə hörmətli Bahar xanıma təşəkkür etmək istəyirəm. Həqiqətən də, dövlətin ailə siyasətinin tam mənzərəsini

yaratmağa imkan verən bir məlumatdır. Bəzən mexaniki olaraq kimsə hesabat, məruzə də adlandıra bilir. Bu onun hüquqi mahiyyətini dəyişmir. Gerçəkdən də, çox mühüm bir məlumat bazası yaradılıb və bu sənəd gələcək dövr üçün ailə siyasətinə dair əlavə korreksiyaları, tədbirləri həyata keçirməyə imkan verir. Elə zənn edirəm ki, bu sənəd 2021–2050-ci illər üçün hazırlanan ailə strategiyasında da nəzərə alınacaqdır.

Dərhal təkliflərə keçmək istəyirəm. Birinci, erkən nikahlarla bağlı hörmətli Bahar xanımın və Hicran xanımın da məruzələrində fikirlər səslənmişdi. Mən çıxışımda insan alverinə qarşı mübarizə ilə bağlı məsələdə buna bir abzas yer ayırmışdım. Amma mahiyyəti bizi, gerçəkdən də, tədbir görməyə vadar edir.

Baş idarə tərəfindən 293 erkən nikahın qarşısının alındığı söyləndi. O cümlədən rəsmi rəqəmlərə görə, 2022-ci ildə 2011 uşağın 15-17 yaş aralığında qızlarımız tərəfindən dünyaya gəldiyi, onlardan 1880-nin 1 uşağı, 120-nin 2 uşağı, 11 nəfərin isə 3 uşağı olduğu səsləndi. Ona görə də hesab edirəm ki, bizim ədəbi mütəfəkkirlərimiz Cəlil Məmmədquluzadə daxil hamısı sağ olsaydı, gerçəkdən də bu arxaik, orta əsr qalığına qarşı bütün gücləri ilə mübarizə aparardılar. Ona görə də hüquqi yol ən optimalıdır. 15-17 yaş aralığı üçün müxtəlif güzəştləri özündə ehtiva edən maddəni tamamilə çıxarsaq, məsələ həllini tapmış olacaq.

Başqa bir məsələ boşanmanın statistikası ilə bağlıdır. Mən bunu məşhur tələ nəzəriyyəsinə görə “statistika tələsi” adlandırıram. Düşünürəm ki, biz hamımız mexaniki olaraq o tələyə düşürük. Bu da ondan ibarətdir ki, bəli, gerçəkdən də, ilk anda o rəqəmlərə baxanda vahiməli görünür. 2022-ci ildə boşanmanın statistikası 16 min,

2023-cü ildə 22 mindir. İki ilə bu, birlikdə 38 min edir. Buradan da belə bir mənzərə yaranır ki, yəqin, Azərbaycan ailəsinə kənar ailə modelləri çox basqı edir. Ailə kiçik dövlətdir, dövlət böyük ailədir, biz bunu hər zaman vurğulayırıq. Belə çıxır ki, dövlətin təməllərinə bir basqı var. Ancaq mən hesab edirəm ki, məsələni daha obyektiv, başqa mexanizmləri tətbiq etməklə analiz etməliyik. Bu da ondan ibarətdir ki, – Mediasiya Şurası bu məsələdəki ailə mübahisələri ilə daha çox qarşılaşır və bununla bağlı məlumatlar da sənəddə öz əksini tapıbdır, – saxta boşanmaların statistikası kütləviləşməkdədir. Onun səbəbləri, təbii ki, bizə təqdim olunubdur, onların üzərində dayanmaq istəmirəm.

Necə müəyyən etmək olar? Son 10 ildə ümumi boşanmalar 138 min təşkil edib. 100 il ərzində Azərbaycan tarixində ən az boşanma İkinci Dünya müharibəsindən sonra cəmi 310 nəfər olubdur. Bəs bunun real olaraq mənzərəsini bilməyin etalonu, barometri nədir? Hesab edirəm ki, boşanma ilə bağlı əsas göstərici alimentlərin verilməsidir. Kimsə deyə bilər ki, uşağı olmayan ailələr, yaxud aliment tələb etməyənlər də var. Doğrudur, amma bunların faizi 3 və yaxud 5 faizdən artıq ola bilməz. Belə olan halda, əgər təkcə 10 ilə 140 minə qədər boşanma varsa, – yalnız buradakı sənəddə göstərilir ki, bölgələr üzrə 64 minə qədər Bakı şəhərində 12 rayon üzrə isə 26 mindir, – bütövlükdə, 90 min aliment verən var. Bizdə boşanmanın gerçək statistikası budur. Bunu da əldə əsas götürməliyik. Ona görə də hesab edirəm, saxta boşanmaların qarşısının alınması üçün daha fərqli mexanizmlər işə salınmalıdır ki, biz vətəndaşlarımızı kütləvi olaraq bu sahədən daşındıra bilək. Bir daha söyləyirəm ki, mən onun üzərində dayanmaq istəmirəm.

Biz Zəfərimizin parlaqlığından danışanda haqlı olaraq deyirik ki, məcburi köçkün ailələri məfhumuna son qoyuldu. Bu, gerçəkdən də, belədir. Ona görə də mayın 15-də beynəlxalq ailə gününü qeyd etməklə yanaşı, bu Zəfəri haqq edən və parlaq səlnamələr yaradan, – mən onların bir neçəsini qeyd etmişdim ki, bəlkə media məkanında onlar təbliğ olunar, – özümüzün milli ailə günümüzün təsis olunması, qeyd edilməsi çox yerinə düşər. Mən sənədə səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Çox hörmətli sədrimiz, Sahibə xanım, hörmətli deputatlar, hörmətli Bahar xanım. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə məlumatı kifayət qədər mükəmməl hazırlanıb. Məlumatda maraqlı statistikalar yer alıb. Düşüncəmə görə, indiki dövrdə statistik təhlildən çox tədqiqatlara üstünlük verilməlidir.

Qadınların yaxşı karyera qazanmaları üçün keyfiyyətli təhsil vacib şərtlərdən biridir. Maraqlı bir misal gətirəcəyəm. Bildiyimiz kimi, hər il ali məktəblərə yüksək balla daxil olan 102 tələbəyə cənab Prezidentin sərəncamı ilə Prezident təqaüdü verilir. 2022–2023-cü tədris ilində Prezident təqaüdçülərindən oğlanların sayı 53, qızların sayı isə 49 olub. 2023–2024-cü tədris ilində isə qızların sayı 56, oğlanların sayı 46 olub. Göründüyü kimi, fərq bir o qədər böyük deyil. Ancaq ali məktəblər sonda bu istedadlı tələbələri seçdikləri ixtisaslar üzrə mütəxəssis kimi hazırlaya bilirlərmi? Bax, gender balansı bundan sonra pozulur.

BMT-nin Baş katibi Antonio Quterreş Beynəlxalq Qadın və Qızların Elmdə İştirakı Günü münasibəti ilə müraciətində qeyd etdi ki, elm kollektiv bilik sahəsidir.

Ancaq elmin inkişafı kişi və qadın arasındakı fərqə görə ləngiyir. Tələbə qızların çox az hissəsi ali məktəblərdə elmi fənləri öyrənməyi seçirlər. Bunun üçün gender stereotiplərini qırmaq lazımdır. Gender stereotipləri barədə sonra danışacağam.

Dünyada baş verən tendensiyalarla tanışlıqdan sonra bəlli olur ki, Azərbaycanda qadınların təbiət elmlərinə və riyaziyyata həvəsi ilbəil artır. Məsələn, məlumatdan görürük ki, riyaziyyatdan fəlsəfə doktoru üzrə qəbul olunan 19 nəfərin 7-si, fizika üzrə 14 nəfərin 9-u, kimya üzrə 22 nəfərin 13-ü, tibb üzrə 38 nəfərin 27-si, psixologiya üzrə 10 nəfərin 9-u, sosiologiyadan isə 12-si də qadınlardır. Həkimlər cəmi 7888 nəfərdir, onların 5346-sı qadın, 2542-si isə kişidir. Ali məktəblərdə çalışan 13 min 18 professor-müəllim heyətindən 7965-i qadın, 5053-ü isə kişidir. Peşələrə determinə artıq genişlənir. Azərbaycanda ali məktəb rektorlarının 3-ü qadındır. Lakin mən cəsarətlə deyə bilərəm ki, onların idarəetmə qabiliyyətləri kişilərdən heç də fərqlənmir.

İntihar problemi bizi çox narahat edir. Həmkarlarım da qeyd etdi, 2023-cü ildə 620 intihar edənlərin 160 nəfəri qadındır. Yetkinlik yaşına çatmayanların sayı da çoxdur – 38 nəfər. İntihar fenomeni mütləq öyrənilməlidir. Mən bu məsələni bir qədər araşdırdım. Dünyada intiharın psixopatik, normal psixi, eqoistik, alturist, din motivləri – individual fərqli formaları, intiharda sosial elementlər ciddi şəkildə öyrənilir. Çox əfsuslar olsun ki, biz yalnız artan dinamikaya təəssüflənirik.

Deputat həmkarlarım kimi məni də boşanmaların sayı narahat edir. Ötən il rəsmi nikahların sayı 54 min 200, boşananların sayı 21 min 688 nəfər olub. Məlumatda səbəblərin faiz göstəricilərinin tədqiqatının verilməsi olduqca

müsbət haldır. Bu prosesdə Mediasiya Şurasının fəaliyyəti xüsusi ilə qeyd edilmişdir. 51,9 faiz barışıq əldə olunmuşdur. Görünür, Milli Məclisdə "Mediasiya haqqında" Qanunun qəbul olunması öz töhfələrini verir.

Orta məktəblərdə qadın müəllimlərin sayının artımı artıq bizi təəccübləndirmir. Bu gender bərabərsizliyinin aradan qaldırılması çox çətindir. Belə bir vəziyyətdə qadın müəllimlərin dərslərinin keyfiyyəti təhlil olunmalıdır. Çünki kişilərin sayı az olduğundan müqayisə aparmaq çox çətindir. Hazırda dünyada STEAM adlı çox vacib bir kontent var. STEAM təbiət elmlərini və texnologiyanı, texniki yaradıcılığı və riyaziyyatı birləşdirən sahələrarası yanaşmalardır, öyrətmədir. Bu vacib kontentdə qızların yeri nədən ibarətdir? Qızların peşə təhsili məktəblərinə üstünlük verməmələri bu platformanı daha da aktuallaşdırır. Bu sahənin mütəxəssislərinin qənaətinə görə, qızlar riyaziyyatdan imtahan verərkən oğlanlarla eyni otaqlarda əyləşirlərsə, onlar cinslərinə aid stereotipləri xatırlayırlar. Məsələn, riyaziyyatdan imtahan verən qızlar oğlanlarla eyni otaqda əyləşirlərsə, aşağı nəticələr göstərirlər. Ancaq qızlarla əyləşirlərsə, daha yüksək nəticə əldə edirlər. Düşünürəm ki, bu sahədə də tədqiqatların aparılması...

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun.

**T.Rzayev**. Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar. Bu gün hörmətli Prezidentimiz cənab İlham Əliyevin növbədənkənar seçkilərdən sonra fəaliyyətə başlamasından 100 gün keçir. Bu 100 gün Azərbaycan xalqı üçün çox əlamətdar olub və tarixiləşib. Mən balaca bir araşdırma apardım və yəqin etdim ki, bu 100 gündə ölkə rəhbəri xarici ölkələrin başçıları ilə, baş nazirlərlə, siyasi, ictimai xadimlərlə 100-dən artıq görüş keçirib, 60-dan çox qəbul olub. Ölkə rəhbəri 25-dən çox

açılış və təməlqoyma mərasimində iştirak edib, 3 ölkədə xarici səfərdə olub. Dəfələrcə işğaldan azad olunmuş ərazilərimizə gedib, bərpa işlərinin gedişi ilə tanış olub. Cənab Prezident təkcə Münhendə olduğu 2 gün ərzində xarici ölkə rəhbərləri ilə, başçıları ilə 24 görüş keçirib. Bu, ölkə rəhbərinin hər gününün nə qədər zəngin olduğunun bir daha ifadəsidir. Mən hamımızın adından cənab Prezidentə can sağlığı, fəaliyyətində uğurlar arzulayıram.

Hörmətli Bahar xanım məlumatda bütün o göstəriciləri aydın göstərdi. Dövlət komitəsinin işi, əlbəttə, uğurludur, çox yaxşı nəticələr var. Bu gün Azərbaycan qadınına hörmət və qayğı tükənməzdir və Azərbaycan Qadınlarının VI Qurultayına cənab Prezidentin göndərdiyi təbrik məktubunda da bu, öz aydın ifadəsini tapdı. Sözsüz ki, bu uğurların yaxşı olmasında Milli Məclisin müvafiq komitəsinin – Hicran xanımın dövlət komitəsi və digər qurumlarla keçirdiyi tədbirlər də çox önəmlidir. Elə bilirəm ki, bundan sonra bu səylər davam etdiriləcək.

Təqdim olunan məlumat real faktlara əsaslanır. Burada çox ürəkaçan rəqəmlər sadalandı. Çox yaxşı haldır ki, əvvəlki illərdən fərqli olaraq bura əlavə məlumatlar da daxil edilib. Bu sahə ilə məşğul olan məsul şəxslərin burada adları çəkilir, göstəricilərin izahı verilir, cədvəllər tərtib olunub və diaqramlar var.

Mən bir təkliflə çıxış etmək istəyirəm. Qadınlarımızın, xüsusi ilə ailəli, uşağı olan qadınların məişət qayğılarının çox olması bizim hər birimizə yaxşı məlumdur. Bu qadınlar həm də iş, vəzifə sahibidirlər. Onlar səhər uşaqlarını məktəbə yola salır, sonra həyat yoldaşlarına diqqət yetirir, ona çay süfrəsi hazırlayır, işə vaxtında getməsini təmin edirlər. Sonra isə özləri işə yollanırlar. Bundan əlavə, uşaqlı qadın ev işləri ilə məşğul olur, uşağın dərsi

ilə maraqlanır, mağazaya gedir, yemək bişirir və sair. O, özünə baxmağa, istirahət etməyə vaxt tapmır. İşə qaça-qaça gedir, işdən tələsik gəlir, yeməyi vaxtında yeyə bilmir, bəzən həyat yoldaşının qayğıları ilə lazımınca məşğul ola bilmir, yorulur, əldən düşür. Nəzərə alsaq ki, bəzi qadınlarımız Mərdəkandan, Sumqayıtdan Bakıya işə gəlir, o zaman onların hansı vəziyyətdə olduğunu təsəvvür edərsiniz. Ona görə də mən Əmək Məcəlləsinə ailəli, uşaqlı qadınların işə 1 saat gec gəlib, işdən 1 saat tez getməsi barədə maddənin salınmasını vacib hesab edirəm. Fikrimcə, dövlət komitəsinin bu məsələ ilə əlaqədar araşdırmaları ola bilər və o qadınlarımıza göstərilən yeni bir qayğının ifadəsi olar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli Sahibə xanım, hörmətli deputatlar, hörmətli Bahar xanım. Mən Bahar xanıma ətraflı məlumata görə təşəkkür edirəm. Qeyd etmək istəyirəm ki, Bahar xanım peşəkar, dövlətçiliyə bağlı və işinin öhdəsindən gələn dəyərli komitə sədridir.

Diqqəti boşanan ailələrə, hər iki tərəfin – qadın və kişinin hüquqlarının qorunmasına və aliment məsələlərinə yönəltmək istəyirəm. Qeyd edim ki, onlarca insan bu cür problemlərlə İnsan hüquqları komitəsinin üzvü kimi mənə və təmsil etdiyim Milli Cəbhə Partiyasına müraciət edir. Müraciətlər çoxdur. Onları analiz edib görürəm ki, bizim qanunlar çox gözəldir və universal insan hüquqlarını özündə əks etdirir. Amma adət-ənənələrimiz, milli mentalitet dediyimiz bir sıra məsələlər onların həyata keçirilməsinə çətinlik yaradır. Qarşı tərəflərdən biri milli-mənəvi, mental, ənənə, namus, qeyrət məsələlərinə istinad edərək alimenti ödəməmək üçün hər cür vasitəyə əl atır, digər tərəf isə alimentin məbləğinin artırılması üçün bütün

vasitələrdən istifadə etməyə çalışır.

Son zamanlar müraciət edənlərin sırasında kişilərin sayı çoxalıb. Bu məni çox təəccübləndirir. Müraciət edənlər içərisində bir nəfər məhz alimenti ödəyə bilmədiyinə və qarşı tərəfin də alimentin məbləğinin artırılması üçün daim məhkəməyə müraciət etməsini əsas gətirib özünə sui-qəsd etmişdi. Şəxsi əlaqələrim vasitəsi ilə onu tez bir zamanda rayondan Bakıya çatdıraraq həyatını xilas edə bildik. Həmişə bu cür məsələlərdə qadınları müdafiə etmişəm. Bu gün də bu fikrimdəyəm ki, uşaq varsa, boşanıb-boşanmamasından asılı olmayaraq kişi ailə başçısı hesab olunur. Ailəni kişi dolandırmalıdır və vəzifəsini yerinə yetirməlidir. Əslində, bu da tərəfimdən mentalitetə, adət-ənənələrə söykənən bəyanatdır. Onsuz da, kişinin qazancının ən çoxu 20 faizi özünə, qalanı isə təbii ki, ailəsinə və uşaqlarına xərclənir.

Bununla bərabər, gender bərabərliyi, qadın hüquq və azadlıqları deyəndə feminizm ideyaları ortaya atılanda, təbii ki, bu, birtərəfli ola bilməz. Hüquq və azadlıqlar birtərəfli olmur. Hüquq və azadlıqlar anarxiya demək deyil. Bir nəfərin hüququ başlayanda, o biri tərəfin hüququ məhdudlaşır.

Azadlıq da anarxiya və özbaşınalıq deyil. Azadlığın da çərçivələri var və məhdudiyyətlərlə bərabər başlayır. Ailə quran insanlar nikah anından bir çox azadlıqlarını qurban vermiş olurlar və gərək, bu hal ilə barışsınlar. Biz dünyəvi və demokratik ölkəyik. Adət-ənənəyə, dini qaydalara və mentalitetə söykənən qanunlar da qəbul edə bilmərik. Amma bəlkə də problemin, az da olsa səngiməsi üçün müəyyən addımlar atmaq olar. Məhz bu baxımdan bir sıra təkliflər vermək istəyirəm.

Birinci. Aliment fondunun yaradılması vacibdir, amma

proses həddindən çox uzanır.

İkinci. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində Mediasiya Şurası kimi bir qurum formalaşdırmağı təklif edirəm ki, onlar məhkəmədən öncə ailələrə qanunlarla bərabər, həm də yaşadığımız cəmiyyətin, ata-babalarımızdan gələn ənənələrini də başa salmağa çalışsınlar. Çünki məhkəmə yazılmış qanunlar əsasında qərar çıxarır və demək olar ki, tərəflərdən biri – ən azından ya qadın, ya da kişi mütləq şəkildə bunu birmənalı rədd etməyə çalışır, yəni qəbul etmək istəmir.

Üçüncü. Xüsusən rayon və kəndlərdə hüquqi savadsızlıq çoxdur. Az qala 90 faiz əhali heç ərizə yaza bilmir, nəinki adi hüquqi prosedurları bilsin. Onun üçün də komitəyə bu vəzifəni həyata keçirmək üçün əlavə vəsait nəzərdə tutulsa, çox yaxşı olardı. İstərdim, məlumat zamanı qeyd edilsin ki, bir rayonda 10 min, bir kənddə 500-1000 arası qadınla söhbət aparılıb, onlara yardım göstərilib, hüquqi yardımlar edilib və sair. Təbii ki, bu, böyük vəsait tələb edir və həyati məsələ olduğu üçün vəsait ayrılmasını təklif edirəm.

Sonda isə qız uşaqlarının ali məktəblərdə pulsuz təhsilə cəlb edilməsini bir daha qabartmaq istəyirəm. Təklif edirəm ki, qız uşaqlarının ali təhsil alması və peşə sahəsinə yönləndirilməsi dövlət büdcəsi hesabına həyata keçirilsin. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar, öncə qeyd etmək istəyirəm ki, mən son bir neçə ildə ombudsman aparatı kimi Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hesabatlarında da qanunvericiliyin tələblərinə tam əməl etmək cəhdi, əhatəlilik və sistemli yanaşma görürəm. Onu

da görürəm ki, burada hər bir statistikanın, təşəbbüsün, təklifin, yaxud da tənqidin arxasında həssaslıq və böyük zəhmət dayanır. Hesabat yetərincə əhatəli olmaqla yanaşı, orada xeyli yeniliklər də var. Onlardan biri məhz həmin yenilikərin nədən ibarət olduğunun giriş hissədə açıqlanmasıdır.

Vaxtın azlığını nəzərə alaraq, mən hesabatda əksini tapan, sadəcə, 2-3 məqamın üzərində dayanacağam ki, onların arasında əmək hüququ da var. Dördüncü Sənaye İnqilabı nəticəsində idarəçiliklə yanaşı, istehsalat da, belə demək mümkündürsə, get-gedə rəqəmsallaşdığından bu prosesdə süni intellektin rolu durmadan artdığından qadın və kişi sənəti anlayışları, demək olar ki, aradan qalxır.

Əmək hüququnun təmin edilməsində gender bərabərliyi məsələsində, məncə, Azərbaycanda vəziyyət əksər ölkələr üçün örnək sayıla bilər. Düzdür, bizdə işlə təmin olunmaq məsələsində kişilər çox kiçik faiz nisbəti ilə qadınlardan irəlidə olsalar da, bu da get-gedə həllini tapır. Bununla yanaşı, bütün icra strukturlarında rəhbər vəzifəli qadınların say nisbəti kişilərlə müqayisədə xeyli azdır. Fikrimcə, bu məsələnin, eyni zamanda, gender əsaslı əmək haqqı bərabərsizliyinin tam aradan qaldırılması davamlı diqqətdə saxlanılmalıdır.

Məhz hesabata dayanaraq burada bir faktı özəlliklə vurğulamağı lazım bilirəm ki, qadınların rəhbər vəzifələrdə kişilərə nisbətən az təmsil olunmaları heç də bizim daha bacarıqlılığımızdan qaynaqlanmır. Üçüncü sektordakı, yəni QHT sektorundakı statistikaya diqqət yetirin. Baxın, qeydiyyatdan keçən 3750 QHT-nin cəmi 471-nin sədri qadın olduğu halda, ötən il qrant müsabiqəsində qalib gələn QHT-lərdən 271-nin sədri kişi, 171-nin sədri isə qadındır. Bu statistika tam da olmasa, belə bir mənzərə

ortaya qoyur ki, qadınların rəhbərlik etdikləri QHT-lər kişilərin rəhbərlik etdikləri QHT-lərdən azı 5 dəfə daha səmərəli fəaliyyət göstərir.

Hazırda cəmiyyətimizdə ən böyük problemlərdən biri ailə institutunun üzləşdiyi təzyiqlərdir ki, burada da, heç şübhəsiz, qlobalizmin arxasındakı güclərin reallaşdırdıqları açıq və gizli "social engineering", yəni sosial-mühəndislik texnologiyası öz mənfi rolunu oynayır. Gizli deyərkən mən, məsələn, Fransa Prezidentinin kadr siyasətini nəzərdə tuturam. Ənənəvi ailə institutunun dağıdılmasına yönəlmiş açıq sosial-mühəndislik texnologiyası isə yanlış təqlid modellərinin cəmiyyətə sırınmasıdır ki, bu model rolunda da bizdə çox vaxt sənətləri kimi savad və sosial məsuliyyətləri də yerində olmayan şou əhli çıxış edir. Çox təəssüf, onlar təkcə görkəmləri ilə deyil, davranışları ilə də təqlid edilməyə başlanılırlar ki, burada da ən böyük məsuliyyət televiziyaların və sosial medianın üzərinə düşür. Mənə elə gəlir ki, sosial media və televiziyaların əks yöndə fəaliyyətlərini necə təmin etməyin konsepsiyası tezliklə hazırlanaraq reallaşdırılmalıdır ki, bu da təkcə komitənin həll edəcəyi məsələ deyil.

Eyni zamanda, media təhlükəsizliyi, rəqəmsal savadlılıq, informasiya savadlılığı, ekran savadlılığı, bütövlükdə, kompüter savadlılığı ilə bağlı problemlər həllini tapmalıdır. Media savadlılığı orta məktəblərdə tədris edilməlidir. Avropanın təcrübəsi də göstərir ki, arzulanan nəticənin alınması üçün bu, digər fənlərə inteqrasiya olunmuş formada deyil, ayrıca dərs şəklində reallaşdırılmalıdır.

Sonda diqqətinizə çatdırmaq istəyirəm ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi işğaldan azad edilən torpaqlarımızda gedən quruculuqdan da böyük önəm daşıyan quruculuğun, müddətsiz bir prosesin, yəni

cəmiyyət quruculuğunun tənzimlənməsində, burada baş verənlərə nəzarətin və hətta yumşaq güc tətbiqinin həyata keçirilməsində yer alan mərkəzi orqanlardan biridir. Bir sözlə, üzərində çox böyük məsuliyyət və bu gün plenar iclasın gündəliyinə çıxarılan hesabatından da açıq-aydın görünür, elə o qədər də yük var. Bu yükün yüngülləşdirilməsində cəmiyyətin hər bir düşünən üzvü əlindən gələni etməlidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hesabatını qənaətbəxş sayıram. O sıradan da qanunvericilik müstəvisində irəli sürülən təşəbbüs, tövsiyə və təklifləri dəstəkləyir, işlərində uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhhərmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2023-cü ildə fəaliyyəti haqqında məlumatını məqbul hesab edirəm, müsbət münasibətimi bildirəcəyəm. Xüsusən ötən dövr ərzində aparılmış işlərin müsbət təzahürlərinin statistikada real ifadəsi kifayət qədər qiymətləndirilməli məqamdır. Eyni zamanda, qarşıya qoyulan vəzifə və tövsiyələr kifayət qədər konseptual xarakter daşıyır.

Hamımız yaxşı xatırlayırıq ki, möhtərəm cənab Prezident fevralın 14-də andiçmə mərasimindəki tarixi çıxışında elə bu zaldan bəyan etmişdi: "Biz, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində sarsılmaz hesab olunan elə daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar".

Ən azı ötən 3 illik zaman göstərir ki, bu qüvvələr hərbi-siyasi yolla nəyəsə nail ola bilmirlər, ona görə də hədəf milli və ailə dəyərlərimizdir.

İndi biz də öz növbəmizdə dövlət başçısının dediyi kimi, elə gənc nəsil yetişdirməliyik ki, onlar daim milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsun, heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın.

Tərbiyə məsələsində isə təbii ki, həlledici sima qadındır. Bu mənada gender bərabərliyi təbliğatı elə aparılmalıdır ki, hər şeydən öncə, milli ənənə və Qərb dəyərləri arasında balans qorunsun. Dövlət qurumunun bu sahədə fəaliyyəti kifayət qədər aydındır. Lakin ictimai sektorda bu fəaliyyət avropalı qadın obrazını yaratmağa yönəlməməlidir və Qərbin bəzi ölkələrindəki itmiş, yaxud məhv olmuş ailə dəyərlərinin gender bərabərliyi adı altında kütləvi idxalına rəvac verilməməlidir.

Konkret problemlərə gəldikdə isə bir neçə hüquqi təklif gündəmə gətirmək istəyirəm. Birincisi, biz nikah müqaviləsini icbari formata salmalıyıq. Necə ki nikahdan öncə tərəflər icbari tibbi müayinəyə cəlb edilir, eləcə də nikah üçün müraciət edərkən nikah müqaviləsi aidiyyəti icra orqanına təqdim edilməlidir. Bunun üçün tərəflərin bərabər mənafelərini rəhbər tutaraq müqavilə nümunəsi Ailə Məcəlləsinə də əlavə kimi nəzərdə tutula bilər. Xüsusi şərtləri olmayan tərəflər elə bu formadan istifadə eləyə bilər. Üstəlik, nikah müqaviləsində ərin, arvadın öhdəlikləri üzrə tutulanın digərinin mülkiyyətində olan əmlaka, habelə ümumi əmlakındakı payına yönəlməsini yalnız tərəfin özünün birbaşa iradəsinə bağlamalıyıq. Biz bununla, birincisi, yersiz məhkəmə çəkişmələrinin qarşısını ala bilərik, ikincisi isə boşanma prosesində xüsusən qadınların hüquqları üçün təhdidləri aradan qaldıra bilərik.

Bilirsiniz ki, bəzən biz reallığı görməyə bilirik, amma

məhkəmə zalları çox şeyə şahiddir. Məsələn, bir çox hallarda boşanma prosesi özü zorakılığın kökündə dayanan amilə çevrilir. Ümumiyyətlə, biz mübahisəsiz boşanma prosesini niyə məhkəmələrə həvalə edirik? Mübahisə varsa, bu, başqa məsələ. Amma mübahisə yoxdursa, üstəlik, nikah müqaviləsi də varsa, biz Ailə Məcəlləsinin 17-ci maddəsində olduğu kimi, boşanma prosesini övladın olub-olmamasından asılı olmayaraq, tam şəkildə qeydiyyat idarələrinə həvalə edə bilərik. Nikah könüllü ittifaqdır, adam istəmirsə, onun aylarla məhkəmədə sürünməsinə heç bir gərək yoxdur. Barışma ehtimalı varsa, onsuz da statistika da göstərir, mediasiya prosesində bunu müəyyən etmək olar.

Digər vacib məsələ. Bizim qanunvericilik nə erkən nikaha, nə də qohum evliliyinə münasibətdə faktiki heç bir təsir gücünə malik deyil. Düzdür, Cinayət Məcəlləsində 16 yaşına çatmayan şəxslə münasibətdə 152-ci və 153-cü maddələr var. İndi məzmununu qabartmaq niyyətində deyiləm, amma bu, erkən nikahı əhatələmir. Ona görə də istər erkən nikahlar, istərsə də qohum evlilikləri məsələsinə dair yeni müddəaların qanunvericiliyə daxil edilməsi zəruridir.

Eyni zamanda, möhtərəm Prezidentin andiçmə mərasimində də qeyd etdiyi kimi, biz o köklü ailə dəyərlərimizin qorunması üçün həm qanunvericilik səviyyəsində, həm də digər istiqamətlərdə möhtərəm Prezidentin o tezislərini rəhbər tutaraq, heç bir amilin – istər qanunvericilikdəki boşluqlardan qaynaqlanan, istərsə də təcrübədən qaynaqlanan amilin bizim ənənəvi ailə dəyərləri formulunu dağıtmasına imkan verməməliyik.

Sonda mən bir daha Bahar xanıma ətraflı məruzə üçün, xüsusən məruzəsinin sonundakı qəti siyasi mövqeyinə

görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən hər şeydən öncə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar xanıma təşəkkür edirəm ki, Milli Məclisə belə çox zəngin, faktoloji bir material təqdim edibdir. Düşünürəm ki, elə millət vəkili həmkarlarımın çox gözəl çıxışlarını da motivasiya edən budur. Yəni biz nə ilə tanış oluruq? Gender siyasəti ilə bağlı ölkəmizdə olan real vəziyyətlə. Bu, çox vacib, çox ciddi təhlil edilməli, mühüm analitik bir sənəddir. Qüsur kimi gördüyümüz səbəbləri aradan qaldırmaq üçün, ilk növbədə, bizə belə bir mətn lazım idi ki, real vəziyyəti təsbit edək.

Bilirsiniz ki, bu günlərdə sosial şəbəkələrdə gender məsələsi ilə bağlı çox qızğın müzakirələr gedir. Bir şey qarışdırılır. Mən istəyirəm ki, bu, diqqətə alınsın. Gender bərabərliyi hüquqi bərabərlikdir, qadın və kişinin fiziki, anatomik, bioloji bərabərliyi deyil. Çox təəssüf ki, bunlar bir-birinə qarışdırılır və hüquq yaddan çıxır. Hüquqi müstəviyə gəldikdə isə, baxın, bu gün Azərbaycanda çox hörmətli Birinci vitse-prezidentimiz Mehriban xanım, Azərbaycan parlamentinin sədri başda olmaqla rektorlar, dövlət idarəetmə institutlarının rəhbər şəxsləri qadınlardan ibarətdir və bu, özlüyündə Qərb qadını rol modelini rədd edir, milli bir qadın rol modeli nümunəsi yaradır. Mən düşünürəm ki, biz bunu təbliğ etməliyik və bu, əslində, təbliğ olunur da. Qaldı ki digər məsələlərə bunlar mentalitetlə, milli xarakterlə bağlı məsələlərdir.

Mən razıyam ki, bu gün bizim ictimai münasibətlərdə, ictimai şüurun üzərində ciddi bir təzyiq var. Qərbdən şüurlu şəkildə bizə ixrac edilən, sosial şəbəkələrdə ümumi,

kütləvi və mənəvi şüurumuzu deformasiyaya məruz qoyan təzyiqlər var. Amma bu o qədər də faciəvi deyil. Nəticə etibarı ilə biz faktları təhlil edəndə bir sıra məsələləri qarışdırırıq. Məsələn, burada qeyd olunur ki, orta əmək haqqına görə qadınların kişilərlə əmək haqqını müqayisə etsək qadınlarınkı azdır. Məncə, bu, belə deyil. Biz bunu necə müqayisə etməliyik? Əgər eyni peşə fəaliyyətində, eyni iş günü ərzində çalışan qadın və kişi fərqli maaş alırsa, bu, başqa şeydir. Belə bir praktika da yoxdur. Yox, əgər peşə seçiminə görə qadın daha yüngül peşə ilə, daha az işlə məşğuldursa, burada maaş fərqi yaranırsa, bu da tamamilə başqa şeydir. Ona görə də, məncə, bu məsələyə bir az diqqət etmək lazımdır.

Digər məsələ. Mən düşünürəm ki, burada rəqəmlərlə bağlı daha ciddi olmalıyıq. 2023-cü ilin statistikasına görə, boşananların faizi 47 faizdir. Sonra da qeyd olunur ki, mediasiya vasitəsi ilə boşanmanın 51 faiz qarşısı alınıb. Bu, 98 faiz eləyir. Onda belə çıxır ki, boşanma ilə bağlı cəmi 2 faiz müraciət etməyibdir. Mən bilmirəm, bu məsələ necədir.

Həmçinin burada qeyd olundu ki, Azərbaycanda 90 faiz qadın ərizə yaza bilmir. Mənə görə belə şeylər heç doğru deyil. Azərbaycan xalqının folklor yaradıcılığının bütün janrlarında – qoşma, gəraylı, şeir, həcv, mübaliğə, hansı formada deyirsiniz, hər bir azərbaycanlı elə ərizə yazsın ki, ciddi bir folklor nümunəsi kimi, institutlara faktoloji material kimi qoyulsun. Axı, belə şeyləri kənardan da eşidirlər. Necə yəni 90 faiz yazıb-oxuya bilmir? Azərbaycanda yazıb-oxumaq 100 faizdir və maşallah bütün qadınlarımız yazmağı da, oxumağı da bilirlər.

Təklifim nədən ibarətdir? Mən hörmətli Bahar xanımın təşkil etdiyi tədbirlərdə dəfələrcə iştirak etmişəm, həm

gender maarifləndirilməsi, həm də ailə dəyərlərinin təbliğ olunması baxımından nə qədər çoxsaylı tədbirlər keçirildiyinə də şahidəm. Mənə elə gəlir ki, burada təkcə bir komitə deyil, bütün vətəndaş cəmiyyəti institutları, təhsillə məşğul olan institutlar gənc nəslə kiçik yaşlardan ailə dəyərlərinin dərslikdə təbliğ olunmasından başlayaraq, daha geniş auditoriyada bu dəyərlərin və qadın-kişi bərabərliyinin tarixdən, mentalitetimizdən gələn əsaslarla necə olduğunu daha geniş şəkildə izah etməlidirlər.

Mən çox hörmətli Bahar xanıma təşəkkür edirəm ki, belə maraqlı, faktoloji material təqdim edibdir. Xüsusən sosial tədqiqat mərkəzləri səbəbini araşdırmalıdır ki, nəyə görə bu rəqəmlər...

**Sədrlik edən.** Çox sağ olun, Hikmət müəllim. Kamilə Əliyeva. Buyurun.

**K.Əliyeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycanda gender bərabərliyinin qorunmasının, cəmiyyətdə Azərbaycan qadınının rolunun artırılmasının, ölkəmizin ictimai-siyasi həyatında qadınların fəal şəkildə fəaliyyət göstərmələrinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Prezident cənab İlham Əliyev də ölkədə gender bərabərliyinin təmin edilməsi, qadınların hüquqlarının qorunması və onların qanunverici icra orqanlarında təmsil olunması üçün böyük təşəbbüs göstərir. Bu gün respublikamızda bütün sahələrdə rəhbər vəzifədə çalışan qadınlarımızın sayı artmaqdadır. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi məsələlərinə görə ölkəmiz ön sıralardadır. Azərbaycanda qadınlarla bağlı dövlət siyasətini həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti, həqiqətən, müsbət qiymətləndirilməlidir. Komitənin dövlət qurumları, nazirlik və icra orqanları ilə birlikdə

həyata keçirdiyi tədbirlər, əhali arasında maarifləndirmə işinin gücləndirilməsi müsbət nəticələr verməkdədir.

2023-cü ildə dövlət komitəsi tərəfindən aktual olan altı mövzuda aparılan araşdırma və təhlillər, həqiqətən də, təqdirəlayiqdir. Bu gün bütün dünyada məişət zorakılığının baş verməsi aktual bir məsələ olaraq qalmaqdadır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda beynəlxalq konfransın keçirilməsi Azərbaycanın bu məsələyə çox ciddi yanaşmasını sübut edir. Komitə qadınlarımızın məşğulluq məsələsinin həllində, eləcə də azyaşlı qızların məcburi nikaha təhrik hallarının qarşısının alınmasında çox səmərəli fəaliyyət göstərir.

Ölkəmizdə qadınların dövlət qulluğunda təmsil olunması da çox vacib məsələlərdən biridir. Mən Bahar xanımdan soruşmaq istərdim ki, gənc xanımlarımızın dövlət qulluğunda işə qəbul olunmaları üçün komitə tərəfindən nazirliklərlə iş aparılırmı? Çünki bəzən xanımlarımız dövlət qulluğuna qəbul imtahanlarında yüksək bal toplayırlar, lakin sonra müsabiqədən keçə bilmirlər. Yəni bu istiqamətdə hansı işlər aparılır?

Ümumilikdə isə mən komitənin 2023-cü ildə fəaliyyəti haqqında məlumatı müsbət qiymətləndirirəm və buna səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar İsgəndərov. Buyurun. Sonuncu çıxışdır.

**V.İsgəndərov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media mənsubları. Mən Bahar xanımın məlumatını yüksək qiymətləndirirəm və müsbət səs verəcəyəm. Mövzu ilə bağlı bir neçə fikrimi qısaca bildirmək istəyirəm.

Dünyada gündə 25 min, ildə isə 10 milyondan çox

erkən nikah qeydə alınır. Bu, təbii olaraq dünyada baş verən proseslərdir, əsas da fokuslanan ölkələr Afrika və Asiya ölkələridir. Bizdə də bununla bağlı artıq uzun müddətdir ki, bir çox müzakirələr gedir. Biz də yaxın vaxtlarda Xalq qəzetinin redaksiyasında dəyirmi masada iştirak etdik və orada bir neçə təklif də verdik.

İndiki proseslərə baxsaq, gələcək qanunlarda nəzərə almalıyıq ki, 17 yaşla bağlı bir istisna məsələsi var. Hörmətli Bahar xanım da, Hicran xanım da bunu qeyd etdilər. 17 yaş istisna məsələsi ilə, əsasən, rayonlarda yerli icra hakimiyyətləri ilə maraqlansaq, yüzlərcə belə ərizə mövcuddur və onlardan istifadə etməyə çalışırlar.

Mən konkret təklif vermək istəyirəm ki, biz gələcəkdə qanunda erkən yaşlarda nişanlanma məsələsinə baxmalıyıq. Fəsadların biri budur, əsasən, buradan başlayır. Bu, qanunda da əksini tapmalıdır. Bizdə nişanlanma məsələsi, yəni belə bir adət-ənənə var. Erkən yaşlarda nişanlanmanın qarşısını ala bilsək, qanunda nəzərdə tutsaq, düşünürəm ki, artıq erkən nikahlarla bağlı məsələ öz həllini birdəfəlik tapmış olacaq. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, hesab edirəm ki, biz məsələni kifayət qədər müzakirə etdik. Çıxış edən deputatlar illik məlumat haqqında müsbət fikirlər bildirdilər. Mən də hesab edirəm ki, hesabat çox yüksək səviyyədə hazırlanıb.

Səsə qoymazdan əvvəl, Bahar xanım, bilirəm ki, Siz söz demək istəyirdiniz. Kamilə xanım tərəfindən də bir sual oldu. Buyurun.

**B.Muradova**. Çox təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli sədarət və millət vəkilləri. Mən hər şeydən əvvəl, ümumilikdə, Milli Məclisə, çıxış edən hər bir millət vəkilinə dərin təşəkkürümü bildirirəm. Doğrudur,

biz bu illər ərzində məsələnin mahiyyətini tam anlamaq, dərinliyinə varmaq, onun səbəblərini araşdırmaq və müəyyən istiqamətlərdə təkliflər vermək üçün çox çalışdıq. Amma bunu da deməliyəm ki, cəmiyyət özü bu istiqamətdə bizdən daha çox çalışdı, xüsusi ilə millət vəkillərini vurğulamaq istəyirəm. Yəqin ki, siz özünüz də indiki müzakirənin əvvəlki müzakirələrdən nə qədər fərqli olduğunu yaxşı mənada hiss edirsiniz. Çünki millət vəkillərinin özlərinin yanaşmasında məsələnin mahiyyəti, əsl səbəbləri üzrə fikirləri çox dəyərlidir. Mən hər birinizə məlumata göstərdiyiniz bu diqqətə, – məlumat olduğuna görə deyil, hər birimizin həyatına aid məsələ olduğuna görə, – mahiyyəti üzrə həm qanunvericilik əsasında, həm də mexanizmlərin təkmilləşdirilməsi istiqamətində təkliflərinizə görə təşəkkür edirəm. Əlbəttə, təkliflərin hamısı qeydə alınıb və biz onları fəaliyyətimizdə əldə rəhbər tutacağıq. Ümumilikdə isə, bütün dövrlərdə millət vəkillərinin bu prosesdə iştirakı xüsusi qeyd olunmalıdır.

Sahibə xanım, mən Sizə dərin təşəkkür edirəm. Çünki dövlət komitəsinin fəaliyyətinin bütün istiqamətlərində biz Milli Məclisin və onun üzvlərinin çox ciddi dəstəyini, iştirakını görürük. Bu məsələ haqqında burada səsləndiyi kimi, bu, şou və ya hansısa IP qazanmaq məqsədi ilə danışmaq üçün deyil. Həqiqətən, məsələyə, onun mahiyyətinə töhfə vermək istiqamətində mövqelərin daha çox formalaşmasına təsir göstərir. Millət vəkilləri çox sağ olsunlar.

Burada sual verildi ki, dövlət qulluğuna qadınların, gənc xanımların qəbulu ilə bağlı nə işlər görürük? Əlbəttə, dövlət qulluğuna qəbul müvafiq qanunauyğun şəkildə həyata keçirilir. Biz bir neçə dəfə dövlət qulluğuna qəbulu, yəni imtahandan başlayaraq son məqamına qədər prosesi təhlil etmişik. Dövlət qulluğuna qəbulla bağlı

sonuncu təhlil də gender təhlili adlanır. Onunla bağlı məsələlər məlumatda da əksini tapmışdır. Biz burada məsələlərin gedişatını göstərmişik, səbəbləri haqqında da müəyyən fikirlər var. Həmin o təhlillərin nəticələri, ortaya qoyulan tövsiyələr əlaqədar qurumlara göndərilir və onların hər birindən bunlara diqqət yetirilməsi gözlənilir.

Erkən yaşda nişanlanma ilə bağlı təkliflə əlaqədar Vüqar müəllimə təşəkkür edirəm ki, məsələni bu istiqamətə yönəltdi. Çünki 2023-cü ilin sonu və 2024-cü ilin əvvəlindən biz cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri, o cümlədən millət vəkilləri ilə bu məsələni ciddi müzakirə etmişik. Xalq qəzeti, Prezident Administrasiyasının müvafiq şöbəsi, eləcə də ictimaiyyət nümayəndələri erkən nigahlar, selektiv abortlar, gender əsaslı cins seçimi məsələlərini ciddi müzakirə etmişlər və bununla da bağlı xeyli təklif var. Adıçəkilən məsələ – erkən yaşda nişanlanma bizim tərəfimizdən ailə arasında sövdələşmə kimi təsəvvür olunur və düşünürəm ki, "erkən yaşda nişanlanma" adlı bir anlayış qanunvericiliyə gətirilə bilməz. Bu, fərqli bir qaydadır. Bu, problem olduğuna görə biz buna getməyə məcburuq, amma qanunvericiliyə belə bir anlayışın gəlməsi və bununla bağlı tənzimləmə metodunun müəyyənləşdirilməsi özü də bir az müzakirələr tələb edən işdir. Amma bu problem var və biz bunun üzərində işləyirik. Elə Vüqar müəllimi də bu məsələlərə cəlb edəcəyik.

Vüqar Bayramova da dərin təşəkkürümü bildirirəm. Onun iqtisadi məsələlərlə bağlı, qadınların gender bərabərliyindəki vəziyyəti həll etmək istiqamətində təklifləri də nəzərə alınacaq.

Bütövlükdə, təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. Çalışacağıq ki, sizin bu gün ünvanımıza söylədiyiniz

etimad əsasında növbəti istəklərinizi də yerinə yetirək və buna layiq olaq. Sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bahar xanım. Hörmətli həmkarlar, indi isə xahiş edirəm, münasibətinizi bildirəsiniz. Mən məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Bahar xanım, biz Sizə və komitənin kollektivinə uğurlar arzulayırıq. Sağ olun.

Hörmətli həmkarlar, fasilə zamanıdır. Fasiləsiz işləyə bilərik?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, gündəliyin növbəti 4 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Qeyd edim ki, 3-cü, 4-cü və 5-ci məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə yaxındırlar. Gündəliyin 3-cü məsələsi "Tütün və tütün məmulatı haqqında" Qanunda, 4-cü məsələsi "Qida təhlükəsizliyi haqqında" Qanunda, 5-ci məsələsi isə Vergi və Gömrük məcəllələrində və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Təklif edirəm, əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək. Qanun layihələrinə 2 komitədə – Aqrar siyasət və İqtisadi

siyasət, sənaye və sahibkarlıq komitələrində baxılıb. Mən əvvəlcə Aqrar siyasət komitəsinin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlar. Qanunlara edilmiş dəyişikliklər haqqında birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildi. Üçüncü oxunuş ərəfəsində komitəyə elə bir irad, təklif daxil olmayıb. Ancaq ikinci oxunuşda hörmətli deputat həmkarlarım burada bəzi fikirlərini bildirdilər. Onların hər biri ilə ayrılıqda söhbət edildi və ümumi razılığa gəlindi. Məsləhət olundu ki, dəyişikliklər əvvəlki redaksiyada verilsin. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, Siz 3-cü və 4-cü məsələlərlə bağlı məlumat verdiniz. 5-ci məsələ ilə də bağlı Siz rəy bildirməlisiniz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**T.Rzayev.** Hörmətli sədr, komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. İndi isə mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, Tahir müəllimin də dediyi kimi, birinci və ikinci oxunuşlar zamanı deputat həmkarlarımın təklifləri müzakirə olunmuşdur. Sonda bu qərara gəlindi ki, layihə ikinci oxunuşdan keçəndən sonra mətn olduğu kimi saxlanılsın. Bizim komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyuram. Xahiş edirəm, 3-cü məsələdəki qanun layihəsinə, yəni "Tütün və tütün məmulatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən 4-cü məsələdəki qanun layihəsini səsə qoyuram. Bu da "Qida təhlükəsizliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 81 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Nəhayət, 5-ci məsələdəki qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 81 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Vergi və Gömrük məcəllələrində və 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu məsələ də "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Vüqar İsgəndərova söz verirəm. Buyurun.

**V.İsgərdərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Qeyd etməliyəm ki, iki oxunuşda məsələ müzakirə olunub. Bu müddət ərzində komitəyə heç bir müraciət, təklif daxil olmayıb. Üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Heç kimin sözü, sualı yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu 7-ci məsələsinə keçirik. "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilir. Onu da deyim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Anar Kərimov, Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyəti sədrinin müavini hörmətli Əli Mövsümov və nazirliyin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri hörmətli Elnur Abbasov iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olmuş və sizin müzakirənizə təqdim edilən "Əmək pensiyaları haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi pensiya təminatı sahəsində sosial sığorta

prinsiplərinin gücləndirilməsi, sosial ədalətin qorunması, unifikasiya metodunun daha geniş dairədə tətbiqi, pensiya təyinatının avtomatlaşdırılması və proaktiv təyinatların dairəsinin genişləndirilməsi istiqamətlərində hüquqi bazanın möhkəmləndirilməsi məqsədi ilə hazırlanmışdır.

Qanunun 5 maddəsinə 17 dəyişiklik və 1 keçid müddəası təklif edilir. Dəyişikliklər mahiyyət etibarı ilə 4 istiqaməti əhatə edir: dəqiqləşdirici xarakterli texniki dəyişikliklər; sosial sığorta prinsipinin daha da gücləndirilməsinə və təkmilləşdirilməsinə xidmət edən dəyişikliklər; 1-ci qrup hərbi xidmət əlillərinin sosial müdafiəsinin yaxşılaşdırılmasına yönəlik dəyişiklik və elektron pensiya təminatının və proaktiv təyinatının çərçivəsinin genişləndirilməsi məqsədi ilə təklif edilən dəyişikliklər.

1-ci qrup dəyişikliklər "Əmək pensiyaları haqqında" Qanunun 9-cu maddəsini özündə ehtiva edir. Bu maddələrə təklif edilən dəyişiklik qanunun digər maddələrində təsbit olunmuş "hərbi qulluqçulara pensiya təyinatının, onların hərbi xidmətdən buraxıldığı gündən hesablanması" müddəasının qeyd edilən maddələrdə öz əksini tapması zərurətindən irəli gəlmişdir.

2-ci qrup dəyişiklik qanunun 20-ci maddəsinə edilən dəyişikliklərdir. Bu müddəaların bir qədər ətraflı şərh edilməsini məqsədəuyğun hesab edirəm.

Hörmətli həmkarlar, məlum olduğu kimi, "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsinin təsir dairəsinə düşən şəxslərə qulluq stajına görə əmək pensiyasına əlavələr nəzərdə tutulur. Bu şəxsləri şərti olaraq 3 kateqoriyaya ayıra bilərik: 1-ci kateqoriya dövlət qulluqçuları və pensiya təyinatı zamanı onlara bərabər tutulan şəxslər; 2-ci kateqoriya hərbi qulluqçular və onlara bərabər tutulan şəxslər; 3-cü kateqoriya bir səlahiyyət

dövrünə görə qulluq əlavəsi almaq hüququ olan şəxslər, yəni deputatlar, Mərkəzi Seçki Komissiyasının üzvləri, Hesablama Palatasının üzvləri, ombudsman. 1-ci və 2-ci kateqoriya şəxslərin pensiyalarının hesablanması qanuna daha əvvəllər edilmiş dəyişikliklərlə sığorta pensiyası prinsiplərinə uyğunlaşdırılmışdır.

Hazırda təklif olunan dəyişikliklərin mahiyyəti bu qanunun 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrinin təsiri altına düşən şəxslərin pensiya təyinatı aparılarkən sosial sığorta prinsiplərinin daha geniş tətbiqinə hüquqi baza yaratmaqdır. Belə ki, bir səlahiyyət dövrünə görə qulluq əlavəsi almaq hüququ olan şəxslər nə vaxt pensiya yaşına çatmalarından asılı olmayaraq onlara həmin vaxt fəaliyyətdə olan müvafiq səlahiyyətli şəxsin aldığı əmək haqqına görə pensiya hesablanacaqdır. Yəni bu qrupdan olan şəxslər növbəti dönəmdə vəzifəyə seçilmədikdə, yaxud təyin edilmədikdə yeni təsis olunan əlavələr onların pensiyası hesablanarkən nəzərə alınmayacaqdır. Başqa sözlə, hər kəsin pensiyası sonrakı artımlar da nəzərə alınmaqla onun qazandığı məvacibə uyğun olaraq hesablanacaqdır. Bu, həm sosial sığorta, həm də sosial ədalət prinsipinə uyğundur.

Onu da qeyd edək ki, layihəyə təklif olunan keçid müddəaya görə, bu dəyişikliyin təsir dairəsi qanun qüvvəyə minənədək bir səlahiyyət dövrünə görə sığorta stajı əldə etmiş şəxslərə şamil edilməyəcəkdir.

Qanunun 20.16.2-ci maddəsinə təklif edilən dəyişiklik hərbi xidmətlə bağlı əlilliyi olan şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədi daşıyır. Bu qəbildən olan şəxslərin orqanizmin funksiyalarının 81-100 faiz itirilməsi zamanı onların pensiyasının məbləği təminat xərclərinin 60 faizindən 70 faizə qaldırılması təklif edilir.

Layihənin əlavə maliyyə yükü 110-120 min manat təşkil edəcəkdir.

Dəyişiklik təklifinin 4-cü istiqaməti avtomatlaşdırılmış pensiya sisteminin təkmilləşdirilməsi və proaktiv pensiya təyinatının dairəsini genişləndirmək məqsədi daşıyır. Qanunun 22-1.5-ci maddəsinə təklif edilən dəyişiklik sosial müavinətdən pensiyaya keçidin qaydasını dəqiqləşdirir.

Qanunun 31.1-1-ci maddəsinə təklif edilən dəyişiklik, eləcə də qanuna yeni əlavə olunan 34.1-1-ci maddə bir pensiya növündən başqa daha yüksək pensiya növünə keçmənin avtomatlaşdırılmış proaktiv şəkildə həyata keçirilməsinə hüquqi baza yaradacaqdır. Bu dəyişikliyin qəbul edilməsi hər il 6000-dən çox vətəndaşımızın ərizə yazmadan, sənəd toplamadan, vaxt itkisi olmadan avtomatlaşdırılmış qaydada pensiyasının artırılmasına imkan verəcək, vətəndaş məmnunluğunun yüksəlməsinə xidmət edəcəkdir.

Hörmətli millət vəkilləri, beləliklə, müzakirənizə təqdim olunan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə qanun layihəsi pensiya təminatı sahəsində aparılan ardıcıl islahatların mühüm bir mərhələsi kimi əhəmiyyətlidir və sosial sığorta prinsiplərinin dərinləşməsinə, sosial ədalətin təmin olunmasına, pensiya təminatının avtomatlaşdırılmasına və sosial müdafiə sisteminin dayanıqlığının artmasına xidmət edəcəkdir.

Layihə Əmək və sosial siyasət komitəsinin genişləndirilmiş iclasında ətraflı müzakirə edilmiş, konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verdiyi qeyd olunmuş və Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

Hörmətli xanım sədr, çıxışımın sonunda komitəmiz adından Sizə və Milli Məclisin rəhbərliyinə, Milli Məclisin Aparatına təşəkkürümüzü bildirmək istəyirik ki,

məhz Sizin tövsiyənizlə Əmək və sosial siyasət komitəsinin iclasında Milli Məclisin bütün komitələrinin nümayəndələri olan millət vəkili həmkarlarımız iştirak etdilər, çıxış etdilər və öz komitələri adından qanun layihəsini dəstəklədiklərini bildirdilər.

Hörmətli həmkarlar, qanun layihəsini birinci oxunuşda dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Ətraflı məlumat verildi. Təklif var, səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təkid edən var. Qüdrət Həsənquliyev. Əgər Qüdrət müəllimdən başqa heç kim çıxış etmək istəmirsə, xahiş edirəm, adları siyahıdan silinsin. Qüdrət müəllim çıxış edir, Əli Məsimli də. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Çox təşəkkür edirəm. Hörmətli sədr, həmkarlar, media nümayəndələri. Mən ilk öncə sizləri və xalqımızı qarşıdan gələn Dövlət Müstəqilliyi Günü münasibəti ilə təbrik etmək, Rəsulzadə və onun tərəf-darlarını böyük ehtiram və hörmətlə anmaq istəyirəm. Onlar ilk dəfə olaraq Şərqdə, islam dünyasında respublika qurdular və çətin tarixi şəraitdə Şimali Azərbaycan ərazisində Azərbaycan dövlətini formalaşdırdılar.

Hörmətli həmkarlar, müzakirə olunan məsələ ilə bağlı qeyd etmək istəyirəm. Bizə təqdim edilmiş arayışda qeyd olunur ki, mövcud qanunvericilikdə bir səlahiyyət dövrünə görə qulluq əlavəsi almaq hüququ olan şəxslərdə sonradan əlavə edilən yeni əlavə pensiya təyinatında nəzərə alınır. Bu yanaşma şəxsin vaxtı ikən işləyərkən almadığı məvacibə görə haqsız pensiya əldə etməsinə səbəb olmaqla, pensiya sığorta sisteminin fəlsəfəsi ilə ziddiyyət təşkil edir.

Hörmətli həmkarlar, görək, hüququn fəlsəfəsi nə deyir? Hüquq fəlsəfəsi deyir ki, o, hüququn mahiyyətini öyrənir və qanunla bağlı bu suallara aydınlıq gətirir. Qanunun məqsədi nədir, hansı əxlaqi və siyasi nəzəriyyələr qanunun əsasını təşkil edir və sair.

Hüquq fəlsəfəsinə görə, qanunda ən yaxşı nəticələr əldə edilməsi üçün hazırlanmalı, ictimai əxlaqla pislənməməlidir, ədalətli olmalı və başqalarının hüquqlarını müdafiə etmək xarakteri daşımalıdır. Təbii, əxlaqi hüquq nəzəriyyəsinə görə, ədalətsiz qanun həqiqi qanun deyildir. Hüquq düşüncəsi də qeyd edir ki, cəmiyyətin hüquqa dair emosiya və təsəvvürləri mütləq norma yaratma fəaliyyətində nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Konstitusiyanın 7-ci maddəsində qeyd olunur ki, Azərbaycan dövləti dövlət hakimiyyətlərinin bölünməsi prinsipi əsasında fəaliyyət göstərir. Konstitusiyanın 149-cu maddəsində qeyd edilir ki, normativ hüquqi aktlar hüquqa, haqq-ədalətə, bərabər mənafelərə bərabər münasibətə əsaslanmalıdır. Yenə də "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 8.0.4-cü maddəsində qeyd olunur ki, normayaratma fəaliyyətinin əsas prinsiplərindən biri mütənasiblik prinsipidir. Konstitusiyanın 71-ci maddəsində isə bunun izahı verilir ki, mütənasiblik nədir. Yəni hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən göstərilən nəticəyə münasib olmalıdır.

Bizim dövlətimizin məqsədi nədir? Konstitusiyanın 12-ci maddəsində qeyd olunur ki, dövlətimizin ali məqsədi vətəndaşların layiqli həyat səviyyəsini təmin etməkdir. Belə olduğu halda, bizim yeni yaradacağımız norma dövlətin ali məqsədinə cavab verir, yoxsa yox? Biz burada hüquqları məhdudlaşdırırıq. Qeyd etdiyim kimi, Azərbay-

canda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir. Prezident həm dövlətin başçısıdır, həm də icra hakimiyyətinin başçısıdır. Eyni təminat olsun, onun məsuliyyəti daha yüksəkdir. Amma baxın, "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Qanunda qeyd olunur ki, keçmiş Prezident Azərbaycan Respublikasının fəaliyyətdə olan Prezidentinin aylıq vəzifə maaşının 50 faizi məbləğində aylıq pensiya alır. Yəni fəaliyyətdə olan Prezidentin maaşı artsa, onun da pensiyası artacaq. Bundan başqa, o, vəzifəsini tərk etdiyi andan, hətta pensiya yaşına çatmasa belə, pensiya alacaq. Həmçinin aylıq vəzifə maaşının 20 faizi məbləğində ona əlavə təmsilçilik xərcləri ödənilir, sürücü verilir, təhlükəsizliyi təmin olunur və sair.

Mən bunu ona görə söyləmək istəyirəm ki, vaxtı ilə bizdə də eyni prinsiplər idi. Hakimlər və deputatlar da fəaliyyətdə olan deputatın əmək haqqının 80 faizi məbləğində pensiya alırdılar. Bu, çox ədalətli idi. Həm də hakimiyyətin bütün qanadlarında pensiyanın təmin olunmasına eyni yanaşma mövcud idi. Amma, məsələn, gələcəkdə dövlətimizin imkanları artdı, dövlətimiz zənginləşdi və hesab etdilər ki, deputata daha çox maaş verilməlidir, belə çıxır ki, bu halda digər millət vəkilləri artıq öz pensiyalarında bunu hiss etməyəcəklər. Yaxud da manat dəyərini itirdi və yenə də əmək haqları artırıldı. O zaman yenə deputatların pensiyası artmayacaq.

Hörmətli sədr, burada ən böyük təhlükəli məqamlardan biri həm də hərbi hissələrlə bağlıdır ki, bura çox ədalətsiz müddəa daxil olub. Deməli, 25 il...

Hörmətli sədr, xahiş edirəm, mənə 1 dəqiqə də əlavə vaxt verilməsinə imkan yaradasınız, hərbçilərlə də bağlı

fikrimi söyləyim, vaxtım başa çatıb.

Hərbçilər 25 il hərbi xidmət keçdikdə, yaxud 30 il iş stajına malik olduqda onun 15 ilini hərbçi kimi xidmət etdikdə onlar pensiyaya çıxırdılar, yəni ehtiyata buraxılırdılar, pensiya alırdılar. Sonradan dövlətin ehtiyacı varsa, onlar işləyirdilərsə, həm pensiya alırdılar, həm də dövlət onlara gördükləri işə görə əmək haqqı verirdi. Amma indi deyirik ki, onlar ehtiyata buraxıldığı andan, yəni işini artıq davam etdirirsə, deməli, pensiya almaq hüququndan onu məhrum edirik. Bu, nə dərəcədə doğrudur? İnsan 25 il xidmət edib, Dövlət Sosial Müdafiə Fonduna pul ödəyib və öz pulunu geri alır. Dövlət o pulu ona vermir. O, həmin vəsaiti sığorta fonduna özü ödəyib. Ona görə onları bundan məhrum etmək, hesab edirəm ki, düzgün deyil. Həm də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi çalışır ki, daha az adam pensiya alsın, az adam ünvanlı sosial yardım alsın, pensiyaların məbləği azalsın.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Pensiya sisteminin təkmilləşdirilməsini müsbət hesab edirəm. Eyni zamanda, pensiya təminatı sistemində sosial sığorta prinsipinin gücləndirilməsi, pensiya təminatı prosesinin sadələşdirilməsi, pensiyaların yenidən hesablanması, bütün növ əmək pensiyalarının məbləğinin hər il vahid qaydada indeksləşdirilməsi və sair məsələlər çox müsbət qiymətləndirilir. Bu da, hesab edirəm ki, layihədə pensiya sisteminin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımlardır. Amma bu məsələdə bir sıra suallar ortaya çıxır. Onları qeyd etmək istərdim. Birinci, burada olan dəyişikliklərin hamısı sosial ədalət nöqteyi-nəzərdən aid olan kateqoriyaların pensiya vəziyyətinin birmənalı şəkildə yaxşılaşdırılmasına gətirib çıxaracaqmı?

İkinci sual kimi Qüdrət Həsənquliyevin qaldırdığı məsələni həm dəstəkləyirəm, həm də buna əlavə aydınlıq gətirilməsini vacib hesab edirəm.

Üçüncü məsələ. Burada hərbçilərlə bağlı dəyişikliklərin maliyyə tutumu öz əksini tapıb. Bütövlükdə, burada təqdim olunan bütün maddələr üzrə maliyyə tutumunun nə qədər olması məsələsinə, hesab edirəm ki, aydınlıq gətirilməlidir.

Həmçinin hörmətli sədr, hesab edirəm ki, bu təqdimatın ayrı-ayrı maddələri dil baxımından lazımi səviyyədə aydın deyil. Xüsusən deputatlara aid olan hissəyə əlavə aydınlıq gətirilməlidir. Mənə elə gəlir, qanun elə yazılmalıdır ki, mətn və mətni də izah etmək üçün bu məsələlər əlavə tərcüməçi zərurəti səviyyəsində mürəkkəbləşməməlidir.

Eyni zamanda, pensiya, sadəcə, sosial məsələ deyil, iqtisadi məsələdən əlavə, həmçinin siyasi məsələdir. Ona görə, hörmətli sədr, bu pensiya məsələsi həssas məsələ kimi bir nazirliyə tapşırılmamalıdır. Bütövlükdə, dövlət hakimiyyəti orqanları pensiya sisteminin təkmilləşdirilməsi istiqamətində cəmiyyətin gözləntilərinin həyata keçirilməsini sürətləndirmək istiqamətində addımlar atmalıdırlar. Bu nöqteyi-nəzərdən burada olan dəyişikliklərə əlavə aydınlığın gətirilməsi ilə yanaşı, həm də cəmiyyətin gözləntiləri baxımından bəzi məqamları qeyd etmək istərdim.

Birinci. Pensiya sistemi orta perspektivdə hələ dünya praktikasında özünü doğruldan pensiya sistemi səviyyəsinə çatmayacaq. Ona görə də elə təkmilləşdirmələr etmək lazımdır ki, məsələn, əgər müəllimlərin, həkimlərin, elm-təhsil sahəsində çalışanların sağlamlıq durumu, digər parametrləri imkan verirsə, onların pensiya yaşına çatandan sonra da müəyyən müddət işləmələri üçün şərait

yaratmaq lazımdır. Əgər kimlərinsə sağlamlıq durumu, hansı isə parametrləri imkan vermirsə, o güzəştlərin də dairəsini genişləndirməklə şərait yaratmaq lazımdır ki, vaxtından əvvəl pensiyaya çıxanda heç bir maneə ilə qarşılaşmasınlar.

Qeyd etmək istədiyim ikinci məsələ ondan ibarətdir ki, minimum pensiyanın artması pensiya kapitalını o vəziyyətə çatdırır ki, pensiyaya çıxmağa hazırlaşan insanların bir hissəsi artıq həmin pensiyaya çıxmaqdan məhrum olurlar. Yəni əgər minimum pensiya 200 manat olanda pensiya kapitalı 28 min 800 manat, 240 manat olanda 34 min 560 manat, indiki kimi 280 manat olanda isə 40 min 320 manatdır, deməli, minimum pensiyanın 40 manat artması pensiya kapitalının 5760 manat yüksəlmə-sinə gətirib çıxarır. Deməli, belə bir şəraitdə kimsə pensiyaya hazırlaşıbsa, bir müddət sonra əgər minimum pensiya artırsa, əlavə olaraq... Hələ mən hesab edirəm ki, indiki maaşların aşağı səviyyəsində 5760 manat pensiya kapitalı yığmaq həddindən artıq uzun illərin məsələsidir. Bu da insanların bir hissəsi üçün pensiyanın əlçatanlığını tamamilə aradan qaldırır, onları qocalıq müavinətinə yuvarlandırır. Onların, heç olmasa, minimum 280 manat almaq şansı var idi, 180 manat alır.

Hesab edirəm ki, islahatlar prosesində bu məsələ mütləq öz əksini tapmalı və aradan qaldırılması istiqamətində addımlar atılmalıdır. Bir də hesab edirəm ki, özəl pensiya sisteminin sürətləndirilməsi məsələsi həll olunmalıdır.

**Sədrlik edən.** Sağ olun. Fəzail müəllim, deyəsən, sualınız var? Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Etiraf olunmalıdır ki, ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin sosial siyasəti, onun tərkib hissəsi olan

əmək haqlarının, pensiyaların və müavinətlərin artırılması artıq ənənəvi xarakter daşıyır və ölkə büdcəsinin vermiş olduğu imkanlar daxilində bu, artırılır. Mənim bir sualım var ki, bu da cəmiyyətdə kifayət qədər aktualdır. Pensiyaların yaş həddinin azaldılması, aşağı endirilməsi və veteranlara verilən müavinətin artırılması yaxın günlərdə, yaxın illərdə pensiya islahatlarında nəzərə alınacaqmı? Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Musa müəllim, hörmətli həmkarlar tərəfindən bir neçə sual oldu. Mən düşünürəm ki, bəlkə Siz onlarla işçi qaydada danışasınız, iclasa dəvət edəsiniz və sonra ikinci oxunuşda bizə məlumat verəsiniz. Razısız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox yaxşı.

Hörmətli həmkarlar, mən indi qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 3 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 4 gündən sonra, may ayının 28-də ölkəmizdə Müstəqillik günü qeyd ediləcək. 106 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması

xalqımızın zəngin dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi idi. Demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar təkcə ölkəmizin deyil, bütün müsəlman Şərqinin siyasi təkamülündə mühüm rol oynamışdır. Bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərirdi.

Hörmətli həmkarlar, xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnərək 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmişdir. Təəssüf ki, o vaxtkı ölkə rəhbərliyinin qeyri-peşəkarlığı nəticəsində Azərbaycan çıxılmaz problemlər məngənəsinə düşmüşdü. Müstəqil dövlətçiliyin itirilməsi təhlükəsi tam real idi.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi, Azərbaycan sistemli böhrandan çıxıb ardıcıl inkişaf yoluna qədəm qoydu.

Ümummilli Liderimizin inkişaf strategiyasını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli dövlətə çevirmişdir. Onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində əldə edilən möhtəşəm qələbələr nəticəsində erməni işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açmış, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişmişdir.

Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən ölkələri sırasında yerini daha da möhkəmləndirəcəkdir.

Hörmətli həmkarlar, təklif edirəm, Müstəqillik günü münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və gələcəyi naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq! *(Alqışlar.)*

Çox sağ olun. Hörmətli həmkarlar, Müstəqillik günü münasibəti ilə mən sizin hər birinizi səmimi qəlbdən təbrik edirəm! Mən hamınıza möhkəm can sağlığı, firavanlıq və xoşbəxtlik arzulayıram. Eyni zamanda, mən burada daim bizi müşahidə edən media nümayəndələrini də ürəkdən təbrik edirəm.

Bizim bugünkü iclasımız başa çatdı, növbəti iclasın vaxtı haqqında sizə əlavə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Fatma Yıldırım.** Biz hər zaman fəxrlə qeyd edirik ki, Azərbaycan xalqının unikal ailə modeli var. Xalqımızın ailə modeli nəinki Qərbdə, həm də Şərqdə unikal hesab olunan bir modeldir. Buraya ailədaxili münasibətlər, böyüklərə hörmət və ehtiram, valideyn-övlad münasibətləri və digər bu kimi ənənələr daxildir.

Fundamental milli dəyərlər ta qədimdən bu günə kimi gəlib çatıb. Çox sevindirici haldır ki, bu gün gənclərin mütləq əksəriyyəti valideyn nəsihətinə fikir verir, hörmətlə yanaşır. Bu gün Qərbin ailə institutları faktiki olaraq məhv olub. Orada uşaq müəyyən yaş həddinə çatandan sonra valideynlər onu müstəqil həyat qurmağa məcbur edirlər. Bu da ailə münasibətlərinə təsir edə bilən bir haldır. Çünki ailə elə bir institutdur ki, mütləq bağlılıq qırılmamalıdır.

Azərbaycan ailəsi hər zaman uzunömürlü [illegible] dünyada özünəməxsusluğu ilə seçilib. Bu da xalq[illegible] milli sərvəti olan adət-ənənələrimizin və mənəvi dəyərlərimizin qorunub saxlanılmasından irəli gəlir.

Ailə kiçik dövlətdir. Sağlam ailə həm də sağlam cəmiyyətin əsasını təşkil edən amillərdən biridir. Ailəni qorumaq üçün ilk növbədə adət-ənənələrimizi, dəyərlərimizi qorumalıyıq. Bu səbəbdən də milli adət-ənənələrimizin, dəyərlərimizin və nəhayət, ailələrimizin qorunması ən mühüm vəzifələrimizdən biri olmalıdır.

Əlbəttə, zaman, müasir inkişaf da həyatımıza öz təsirini göstərir. Dünyaya inteqrasiyanın müsbət təsirləri olduğu kimi, yaratdığı problemlər də mövcuddur. Azərbaycan ailəsinin də hər bir cəmiyyətdə olduğu kimi müəyyən

problemləri var. Bu gün ailə modelimizdə, adət-ənənələrimizdə müəyyən dəyişikliklərin olması fikri tez-tez səslənir. Xüsusi ilə müəyyən qüvvələr tərəfindən ailə dəyərlərimizi məhv etmək üçün Avropanın ailə mövzusunda zərərli təcrübəsinin təbliğatı aparılır. Bu, yolverilməzdir. Məhz belə təbliğatın, "inteqrasiyanın" nəticəsidir ki, ailələr dağılır, boşanmaların sayı artır. Son illərdə boşanma hallarına nəzər saldıqda müəyyən dərəcədə narahatlıq yaşayırıq. Əvvəllər bu göstərici bağlanan nikahların 10-11 faizi nisbətində olurdusa, hazırda bu rəqəm, təəssüf ki, artıb. Sonuncu statistika isə çox narahatedicidir. Düşünürəm ki, bu istiqamətdə ciddi tədbirlər görülməlidir.

Parlament bir neçə il öncə "Mediasiya haqqında" Qanun qəbul edib. Bu qanun mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilmə qaydalarını və mediatorların statusunu müəyyən edir. Mediasiya Şurası boşanma ilə bağlı problemlərin məhkəmələrə gedib çıxmaması üçün hansı addımlar atır? Boşanmaların artmasının əsas səbəbləri nələrdir? Mediasiya təşkilatları tərəfindən bunun təhlili aparılırmı? Boşanmaların artmasının qarşısını almaq üçün təkliflər verirlərmi? Onların fəaliyyəti vəziyyətə müsbət təsir edirmi? Hesab edirəm, boşanmaların qarşısını almaq üçün bu təsisat daha səmərəli fəaliyyət göstərməlidir.

Biz onu da bilirik ki, erkən nikahlara qarşı mübarizə, gender bərabərliyi haqqında çoxsaylı maarifləndirmə tədbirləri keçirilir, təbliğat işləri aparılır. Vacibdir ki, boşanmaların qarşısını almaq və ailə institutunun önəmi haqqında maarifləndirmə işləri gücləndirilsin, bununla bağlı televiziyalarda verilişlər, videoçarxlar hazırlansın.

Müvafiq qurumları, o cümlədən vətəndaş cəmiyyətini bu məsələyə daha çox diqqət ayırmağa çağırıram.

**Sahib Alıyev.** Ermənistanın 2020-ci ildə təslimçilik aktı imzalamasından cəmi bir həftə sonra Xudafərinə baş çəkən Azərbaycan Prezidentinin işğaldan azad edilən Arazboyu torpaqları qonşu İranla dostluq sərhədi adlandırdığı, yəqin ki, unudulmayıb. Mən Tehrandakı səfirliyimizə qarşı terror aktından sonra iki qonşu ölkənin rəhbərlərinin mayın 19-da sərhəddə, yəni sıfır nöqtəsində bir araya gələrək "Xudafərin" ilə "Qız qalası" hidroqovşaqlarının açılışını etmələrini əlaqələrdə yeni mərhələyə start verildiyinin, dövlətimizin başçısının o zaman dediklərinin reallığa çevrilməsi yönündə mühüm addım atılmasının əlaməti kimi qiymətləndirirəm.

Burada ondan da mühüm və bizi sözün hər anlamında daha da yaxınlaşdıracaq məsələ isə tərəflərin Şimal-Cənub Nəqliyyat Dəhlizini, cənab İlham Əliyevin təbirincə desək, dünyanın ən önəmli nəqliyyat damarına çevirmək niyyətləridir ki, İrandan keçməklə Naxçıvana çəkilən yeni kommunikasiya xətləri də onun bir parçası olacaq.

Azərbaycan Prezidenti plansız və istəyini reallaşdıracağına əmin olmadan hər hansı addım atmır. Yəni hələ 2016-cı ildə İranla Araz üzərində hidroqovşaq və elektrik stansiyalarının tikintisi haqda hökumətlərarası saziş imzalanarkən cənab İlham Əliyev işğal altındakı torpaqlarımızın azad ediləcəyinə tam əmin idi.

Ötən həftə ölkəmizdə rəsmi səfərdə olan Belarus Prezidenti Lukaşenkonun açıqlamasından da görünür ki, hələ İkinci Qarabağ savaşından bir neçə il əvvəl cənab İlham Əliyev növbəti seçkini deyil, millətin gələcəyini düşünən əsl dövlət rəhbəri olaraq nəinki torpaqlarımızın savaş yolu

ilə azad edilməsinin, eyni zamanda, orada aparılacaq quruculuq işlərinin plan-proqramını hazırlayırmış. Nəticə göz önündədir. Cənab Lukaşenko Azərbaycan Prezidentini elə-belə "bütün Qafqazın lideri" adlandırmadı. Bu, sadəcə, reallığın təsbiti idi.

MDB üzvü olan digər bir ölkənin – Tacikistanın Prezidentinin Azərbaycana dövlət səfəri isə başqa bir reallığı göstərir. Fikrimcə, bu səfər ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə töhfə verməklə yanaşı, rəsmi Bakının dünya güclərinin sıx əməkdaşlığa can atdıqları Mərkəzi Asiya Birliyi ilə bağlı planlarına da təsirsiz ötüşməyəcək. O planın tam reallaşacağı günün uzaqda olmadığını isə ötən il BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının – SPECA Sammitinin Bakıda keçirilməsi və onun ardınca Mərkəzi Asiyanın 4 ölkə başçısının Azərbaycana səfərlərinin hamısının dövlət səfəri statusu daşımaları bunu təsdiq etmirmi? Həm də onun təsdiqi deyilmi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Azərbaycanı dəstəkləyən dövlətlərin sayı heç də Ermənistan baş nazirinin bildirdiyi kimi, iki deyil, daha çoxdur. Ancaq Paşinyanın xarizmasını darmadağın etdiyi Qriqorian kilsəsinin əsrlərdir böyük təsir agenti rolunu oynadığı haqda dediklərini bölüşürəm və əlavə edirəm, Ermənistanın ən böyük düşməni orada təqdim edildiyi kimi, Azərbaycanla Türkiyə deyil, hay kilsəsi və hay diasporudur ki, qonşu ölkədə bunu dərk edənlərin sayı getdikcə artmaqdadır. Heç şübhəsiz, burada "dəmir yumruğ"un xidməti həlledicidir.

## MÜNDƏRİCAT

24 may 2024-cü il.................................................................. 3
Edilməmiş çıxışların mətnləri............................................... 87

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

71-ci cild

24 may 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

---

Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 68. Tiraj 150.